AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI

# Ülfət

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

QƏZET 1991-Cİ İLDƏN ÇIXIR

CÜMƏ AXŞAMI, 31 MART 2022-Cİ İL / № 11 (1278)

WWW.ULFET-AZ.COM / ULFET-AZ@MAIL.RU



## Prezident İlham Əliyev Böyük Britaniyanın Silahlı Qüvvələr nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Böyük Britaniyanın Silahlı Qüvvələr naziri, Böyük Britaniya parlamentinin üzvü Ceyms Hippini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə bu il Azərbaycanla Böyük Britaniya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğu məmnunluqla vurğulandı və bu dövr ərzində ölkələrimiz arasında müxtəlif sahələrdə səmərəli əməkdaşlığın həyata keçirildiyi bildirildi. Bu münasibətlə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Boris Consonun Prezident İlham Əliyevə və dövlətimizin başçısının Boris Consona ünvanlanmış təbrik məktublarının əhəmiyyəti qeyd edildi.

Bildirildi ki, 30 illik dövrdə uğurlu əməkdaşlığın həyata keçirilməsi əlaqələrimizin bundan sonra da genişlənməsi üçün yaxşı zəmin yaradır.

Görüşdə neft, qaz, Azərbaycan iqtisadiyyatına Böyük Britaniya tərəfindən sərmayə qoyuluşu, ticarət, nəqliyyat, müdafiə sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Söhbət zamanı NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli dəstək" missiyasında Azərbaycanın iştirakı qeyd edildi.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllindən sonra bölgədə post-münaqişə dövründə gedən proseslər barədə danışdı.

## Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevin 31 Mart-Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı keçirilən tədbirdə çıxışı

**Martın 30-da Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı onlayn tədbir keçirilib.**

**Tədbirdə AHİK-in rəhbər işçiləri, həmçinin üzv və tabe təşkilatların sədrləri və məsul əməkdaşları iştirak ediblər.**

**Öncə 1918-ci ilin mart-aprel aylarında azərbaycanlılara qarşı törədilən soyqırımı qurbanlarının, həmçinin Vətənimiz Azər-**



**baycanın müstəqilliyi və ərazi bütövlüyünün qorunması uğrunda şəhid olmuş oğul və qızlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

**Sonra AHİK sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev çıxış edərək erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı məqsədyönlü şəkildə törədilən soyqırımı siyasətindən danışıb.**

BAX SƏHİFƏ: 3

## Ərzaq təhlükəsizliyinin təmin edilməsinə və əhalinin əsas ərzaq məhsulları ilə təchizatının yaxşılaşdırılmasına həsr olunan müşavirə keçirilib



Martın 29-da Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsinə və əhalinin əsas ərzaq məhsulları ilə təchizatının yaxşılaşdırılmasına həsr olunan müşavirə keçirilib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə keçirilən müşavirədə "Minimum istehlak səbətinin tərkibinə daxil olan bir sıra əsas ərzaq mallarının və onların istehsalında istifadə olunan malların ölkə ərazisindən aparılmasının tənzimlənməsinə dair tədbirlər haqqında" Nazirlər Kabinetinin 18 mart tarixli Qərarından irəli gələn tapşırıqlar, əsas ərzaq malları ilə daxili bazarın təchizatının yaxşılaşdırılması və özünütəminat səviyyəsinin qorunması, yerli istehsalçıların stimullaşdırılması, əsas ticarət tərəfdaşları ilə idxal-ixrac əməliyyatları, daxili bazarda qiymət manipulyasiyası üzərində nəzarətin gücləndirilməsi və digər məsələlər geniş müzakirə olunub.

Müşavirədə İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin, Dövlət Gömrük Komitəsinin, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin, Qida Təhlükəsizliyi və Dövlət Ehtiyatları agentliklərinin məruzələri dinlənilib və müvafiq tapşırıqlar verilib.



## AHİK sədri şəhid ailələrini ziyarət edib

BAX SƏHİFƏ: 2

## "Polşa Azərbaycanla bütün sahələrdə əməkdaşlığa xüsusi önəm verir"

BAX SƏHİFƏ: 2

## AHİK sədri Səttar Möhbalıyevin Avropa Həmkarlar İttifaqları Konfederasiyasının Baş katibi ilə onlayn görüşü olub

BAX SƏHİFƏ: 2

## İki yüz il ərzində əldə etdikləri 44 günə darmadağın olundu

BAX SƏHİFƏ: 5

## "Uşaqların doğulanadək cins seçiminə "YOX" deyək!"

BAX SƏHİFƏ: 4

## Müraciətlərə məsuliyyətlə yanaşılıb

BAX SƏHİFƏ: 5

## COVID-19 infeksiyasına son sutkada 62 yoluxma faktı qeydə alınıb




**Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 62 yoluxma faktı qeydə alınıb, 46 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 4 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 791 min 876 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 781 min 865 nəfər müalicə olunaraq sağalıb, 9 min 691 nəfər vəfat edib. Aktiv xəstə sayı 320 nəfərdir.

**Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 5 min 122, bu günə qədər isə ümumilikdə 6 milyon 697 min 184 test icra olunub.**

## Hüquq məsləhətxanası



BAX SƏHİFƏ: 6

## Həmkarlar ittifaqına üzv ol - iş yerinə təminat al!

*(Əmək Məcəlləsinin 80-ci maddəsinə əsasən, işəgötürən həmkarlar ittifaqı üzvünü bu təşkilatın razılığı olmadan işdən azad edə bilməz)*

## Beynəlxalq

## BƏT-in yeni Baş direktoru seçilib

BAX SƏHİFƏ: 7




# “Polşa Azərbaycanla bütün sahələrdə əməkdaşlığa xüsusi önəm verir”

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı, Azərbaycan-Polşa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri Səttar Möhbalıyev Polşa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Rafal Poborskini qəbul edib.**

Görüşdə ölkələrimiz arasında yüksək səviyyəli əməkdaşlıq münasibətlərindən, ali səviyyədə həyata keçirilən qarşılıqlı səfərlərdən, qanunverici orqanlar arasında olan münasibətlərin səviyyəsindən, dostluq qruplarının uğurlu fəaliyyətindən, qarşılıqlı səfərlərin və təmasların əhəmiyyətindən danışılıb.

**AHİK sədri bildirib ki, Polşa ilə Azərbaycan arasında münasibətlərin dərin tarixi kökləri var:** “Müstəqil respublikalarımız arasında diplomatik əlaqələrin qurulmasından 30 il ötür. Lakin əlaqələrimizin kökü XV əsrə qədər gedib çıxır. Belə ki, 1472-ci ildə Ağqoyunlular tərəfindən Polşaya diplomatik missiya göndərilmişdir. Bunu nəzərə alsaq, bu il həm də Azərbaycan- Polşa diplomatik əlaqələrinin 550 ili tamam olur. Buna görə də 21 fevral tarixini münasibətlərimizin bərpası günü kimi də xarakterizə etmək olar”.

**S.Möhbalıyev qeyd edib ki, dövlətlərimiz arasında bütün sahələrdə ikitərəfli və çoxtərəfli iqtisadi, siyasi və mədəni əlaqələrin, qarşılıqlı faydalı və strateji münasibətlərin inkişafında Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri olmuşdur:** **“1997-ci ildə Ulu Öndərin Polşa Prezidenti Aleksandr Kvasnevskinin dəvətilə ilk dəfə bu ölkəyə rəsmi səfəri zamanı imzalanan dostluq və əməkdaşlıq haqqında bir sıra sənədlər ikitərəfli münasibətləri tənzimləyən normativ-hüquqi bazanı genişləndirməklə qarşılıqlı əlaqələrin daha intensiv inkişafına yeni perspektivlər açmış oldu. Münasibətlərimizin sonrakı inkişafı bu səfərin strateji əhəmiyyətini bir daha təsdiqləyir”.**

AHİK sədri bildirib ki, 2003-cü ilin oktyabrında cənab İlham Əliyev Azərbaycan Prezidenti seçildikdən sonra da Azərbaycan-Polşa münasibətləri prioritet istiqamət təşkil etmiş, dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlər təşkil olunmuş, əlaqələrin inkişafına təkan verən mühüm sənədlər imzalanmışdır.

**S.Möhbalıyev diqqətə çatdırıb ki, 2020-ci ildə Azərbaycan Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 30 ilə yaxın bir müddət ərzində Ermənistanın işğalı altında olan Şərqi Zəngəzuru və Qarabağı cəmi 44 günə azad etdi:** “Bu, tarixi ədalətin zəfəri, beynəlxalq hüququn bərpası idi. Hələ münaqişə dövründə Polşa problemin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində, beynəlxalq hüquq normaları əsasında nizamlanması mövqeyindən çıxış etməklə böyük bir ədalət nümayiş etdirirdi. Təbii ki, bu da ölkələrimiz arasında münasibətlərin inkişafına yeni bir stimul vermiş oldu”.

**Milli Məclisin deputatı vurğulayıb ki, Azərbaycan-Polşa əlaqələri parlamentlər səviyyəsində də inkişaf etməkdədir:** **“Parlament sədrlərinin qarşılıqlı şəkildə təşkil olunmuş rəsmi və işgüzar xarakterli səfərləri ikitərəfli münasibətlərə öz müsbət təsirini göstərib. Parlamentlərarası əlaqələr üzrə işçi qrupu səviyyəsində də dostluq və qardaşlığımızın davamlı olması üçün aktiv iş aparılır”.**

**Konfederasiya sədri deyib ki, ölkələrimiz arasında ümumilikdə 51 sənəd imzalanıb:** “2017-ci ildə hər iki ölkənin prezidentləri tərəfindən imzalanan strateji tərəfdaşlığa və iqtisadi əməkdaşlığa dair Birgə Bəyannamə ölkələrimiz arasında siyasi əməkdaşlığın və strateji tərəfdaşlığın inkişafını təmin etməkdədir. İqtisadi əlaqələrə gəldikdə Azərbaycanda 27 Polşa şirkəti sənaye, tikinti, ticarət, xidmət və sair sahələrdə fəaliyyət göstərir”.

*S.Möhbalıyev Azərbaycan və Polşa həmkarlar ittifaqları arasında olan münasibətlərdən də söz açıb. Bildirib ki, əlaqələrimiz yüksək səviyyədə davam etməkdədir.*

**Görüşə görə təşəkkür edən səfir Rafal Poborski bildirib ki, ölkələrimiz arasında möhkəm təməllər üzərində bərqərar olan münasibətlərimiz strateji xarakter daşıyır və hər iki xalqın mənafeyini əks etdirir. Onun sözlərinə görə, Polşa Azərbaycanla bütün sahələrdə əməkdaşlığa xüsusi önəm verir və münasibətlərin bundan sonra da dərinləşdirilməsində maraqlıdır. Azərbaycanın işğaldan azad olunmuş Şərqi Zəngəzura və Qarabağa səfərini xatırladan səfir bildirib ki, oradakı dağıntıları öz gözləri ilə görüb. Parlamentlər səviyyəsindəki əlaqələrə toxunan səfir bunun münasibətlərimizin daha da inkişafına xüsusi töhfə olduğunu qeyd edib. R.Poborski iki dövlət arasında münasibətlərin bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcəyinə əminliyini ifadə edib.**

Görüşdə tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da müzakirə aparıblar.

**Sonda qarşılıqlı hədiyyələr təqdim olunub.**

# AHİK sədri Səttar Möhbalıyevin Avropa Həmkarlar İttifaqları Konfederasiyasının Baş katibi ilə onlayn görüşü olub




**Martın 18-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, millət vəkili, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının (BHİK) və Pan Avropa Regional Şurasının (PARŞ) vitse-prezidenti Səttar Möhbalıyevin PARŞ-ın və Avropa Həmkarlar İttifaqları Konfederasiyasının Baş katibi Luka Visentini arasında onlayn görüş keçirilib.**

Görüşdə Avropada həmkarlar ittifaqlarının fəaliyyəti, görülən işlər, beynəlxalq və regional həmkarlar ittifaqı təşkilatlarının qərar və tövsiyələri, gələcək perspektivlər müzakirə olunub.

**S.Möhbalıyev Azərbaycan həmkarlar ittifaqlarının cari ildə iş planı, qarşıda duran vəzifələr, həyata keçirilməsi nəzərdə tutulan layihələr, həmçinin görülmüş işlər barədə danışıb.**

L.Visentini Azərbaycan həmkarlar ittifaqlarının fəaliyyətini yüksək qiymətləndirib, gələcək işlərində uğurlar arzulayıb.

**Qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.**

# AHİK sədri şəhid ailələrini ziyarət edib

**Azərbaycanda hər zaman şəhid ailələrinə və qazilərə, həmçinin müharibə iştirakçılarına yüksək diqqət göstərilir, bayramlarda, dövlətimiz üçün digər əlamətdar günlərdə onlara baş çəkilir, maddi-mənəvi dəstək göstərilir. Ölkəmizdə bu istiqamətdə milli həmrəylik yaşanır, dövlət orqanları ilə yanaşı, ictimai qurumlar da bu nəcib missiyada yaxından iştirak edir.**

Ənənənin davamı olaraq martın 17-də **Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev** Novruz bayramı ilə əlaqədar şəhid ailələri ilə görüşüb.

**Vətən müharibəsi şəhidləri Sədi Musayev, Elbrus Əhmədov, Arif Abbasov, Tural Əsgərli, Röyal Ələkbərov və Adil İbrahimlinin ailələrinə baş çəkən S.Möhbalıyev Novruz bayramı münasibətilə onları təbrik edib, xoş arzularını çatdırıb.**

AHİK sədri şəhid ailələri ilə söhbət zamanı bildirib ki, qədirbilən xalqımız Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad edən, bu yolda canını belə əsirgəməyən qəhrəman oğullarını heç zaman unutmayacaq, onları ehtiramla yad edəcək, əziz xatirələrini qəlbində daim yaşadacaq.

Ziyarət olunan şəhid ailələrinə bayram sovqatları verilib.

**Şəhid ailələri onlara göstərilən hərtərəfli qayğıdan razı olduqlarını bildirib və Azərbaycan Prezidenti cənab İlham Əliyev başda olmaqla hər kəsə təşəkkür ediblər.**



# Ötən il qeyri-dövlət sektorunda 7 sahə üzrə 56 yeni ilk həmkarlar ittifaqı təşkilatı yaradılıb

**2022-ci il yanvarın 1-i tarixinə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasına (AHİK) üzv olan 27 təşkilatda 15039 həmkarlar ittifaqı təşkilatı, o cümlədən 62 birləşmiş və 501 şəhər-rayon komitələri fəaliyyət göstərir.**

COVID-19 pandemiyası ilə bağlı cərəyan edən proseslər qaçılmaz çətinliklər yaradaraq həmkarlar ittifaqlarının fəaliyyətinə mənfi təsir göstərsə də, bir sıra sahələrdə müsbət dəyişikliklər də baş verib. Belə ki, 2020-ci illə müqayisədə 2021-ci ildə həmkarlar ittifaqı sıralarına cəlb edilən tələbələrin sayı 5,1% artmaqla həmkarlar ittifaqı üzvlərinin ümumi sayının 0,9 % çoxalmasına səbəb olub.




Üzvlərinin sayı 15 nəfərə qədər olan təşkilatların sayında 0,4 % artım müşahidə olunub. Respublikada kiçik və orta sahibkarlıq, xarici və birgə müəssisələrdə ötən il həmkarlar ittifaqı üzvlərinin sayı 2,6 % artıb.

**2021-ci il ərzində qeyri-dövlət sektoruna aid 7 sahə üzrə 56 yeni ilk həmkarlar ittifaqı təşkilatı yaradılıb. Orada həmkarlar ittifaqı üzvlərinin sayı 3304 olub. Bu da yeni yaradılan təşkilatların sayının 2020-ci illə müqayisədə 4, üzvlərinin sayında isə 7 dəfə artım deməkdir.**

Ötən il ərzində üzv təşkilatlar tərəfindən yeni yaradılmış 107 həmkarlar ittifaqı təşkilatına 13808 nəfər üzv olub, nəticədə orada üzvlüyə cəlb olunanların sayı 2020-ci ilə nisbətən 2,5 dəfə artıb.

**Həmkarlar ittifaqı üzvü olan qadınların sayı 1,6 % artaraq üzvlərin ümumi sayının 52,3%-ni təşkil edib. Gənclərin sayında isə 0,5 % artım olub.**

Ötən il işəgötürənlərlə 123 saziş, 11806 kollektiv müqavilə bağlanılıb. Müqavilə bağlayan həmkarlar ittifaqı təşkilatlarının sayı əvvəlki ilə nisbətən 0,7 %, müqavilələrlə əhatə olunan üzvlərin sayı isə 4,1% artıb.

**Sahə həmkarlar ittifaqlarının 2021-ci il üzrə tərtib etdiyi statistik hesabatların yekunlarına əsasən qeyd etmək lazımdır ki, həmkarlar ittifaqı üzvlüyünün motivasiyasının gücləndirilməsi, yeni təşkilatların, xüsusilə də özəl sektorda yaradılması, maarifləndirilməsi, müasir tələblərə uyğunlaşdırılması, işçilərin hüquqlarının qorunması, onların müraciətlərinə diqqətin artırılması barədə AHİK-in tövsiyələrinin yerinə yetirilməsi istiqamətində müsbət addımlar atılıb.**

**AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi**

# AHİK-də 31 MART - AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ İLƏ BAĞLI ANIM TƏDBİRİ KEÇİRİLİB

**Martın 30-da Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı onlayn tədbir keçirilib. Tədbirdə AHİK-in rəhbər işçiləri, həmçinin üzv və tabe təşkilatların sədrləri və məsul əməkdaşları iştirak ediblər.**

Öncə 1918-ci ilin mart-aprel aylarında azərbaycanlılara qarşı törədilən soyqırımı qurbanlarının, həmçinin Vətənimiz Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün qorunması uğrunda şəhid olmuş oğul və qızlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

**Sonra AHİK sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev çıxış edərək erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı məqsədyönlü şəkildə törədilən soyqırımı siyasətindən danışıb.**

**Bildirib ki, Gülüstan və Türkmənçay müqavilələrindən sonra məqsədli şəkildə ermənilər kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməyə başladığı vaxtdan onlar soyqırımlarına əl atmışlar:** "İrəvan, Naxçıvan və Qarabağda məskunlaşdırılan ermənilər havadarlarının köməyi ilə "Erməni vilayəti" yaratdılar. Bu süni ərazi bölgüsü ilə bilavasitə azərbaycanlıların öz torpaqlarından çıxarılması və məhv edilməsi siyasətinin əsası qoyuldu. Ardınca "böyük Ermənistan" xülyası ortaya atıldı. Bu qondarma ideyadan ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başladıqları vəhşiliklər Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdıldı, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi".



**AHİK sədri vurğulayıb ki, 1918-ci ilin mart-aprel aylarında daşnak-bolşevik silahlı dəstələrinin Azərbaycan xalqına qarşı xüsusi qəddarlıqla törətdiyi soyqırımları isə öz amansızlığına və miqyasına görə təkcə Azərbaycan tarixində deyil, ümumilikdə bəşər tarixində ən qanlı faciələrdən biridir: "O dövrdə Bakı şəhərində, eləcə də Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə məhv edilmişdir. Yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscidlər və digər ibadət yerləri yerlə-yeksan edilmişdir. Bakı quberniyasında başlanan kütləvi qətllər və talanlar daha sonra Qarabağda, Zəngəzurda, Naxçıvanda, İrəvanda, Göyçədə və digər bölgələrdə davam etdirilmişdir. Təkcə 1918-ci ilin mart-iyul aylarında Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda, Göyçayda erməni silahlıları 50 mindən çox azərbaycanlını qətlə yetirmişlər. Şamaxı qəzasının 110, Quba qəzasının 167, Qarabağın 150-dən çox kəndi, Zəngəzur qəzasının 115 kəndi yandırılmış və talan edilmiş, dinc əhaliyə heç bir fərq qoyulmadan qəddarcasına divan tutulmuşdur. Yeri gəlmişkən, diqqətinizə çatdırım ki, 1918-ci ilin qanlı hadisələri zamanı Gəncədə, Qubada və Azərbaycanın digər bölgələrində türk-müsəlman əhali ilə birlikdə, 3 minə qədər yəhudi bacı və qardaşlarımız erməni quldurları tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir".**

"O dövrdə Bakı şəhərində, eləcə də Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə məhv edilmişdir. Yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscidlər və digər ibadət yerləri yerlə-yeksan edilmişdir".




*Konfederasiya sədri diqqətə çatdırıb ki, hadisələrin üstündən 80 il keçdikdən sonra Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlət başçısı kimi 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanda azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımlarının ilk dəfə rəsmən adı çəkilmiş, "böyük Ermənistan" xülyasını həyata keçirməyin əsas yolunun azərbaycanlıların məhv edilməsində, köçürülməsində, onların tarix və mədəniyyət abidələrinin dağıdılmasında, yer adlarının dəyişdirilməsində görmüş anti-Azərbaycan qüvvələrin mənfur əməllərinə siyasi qiymət verilmişdir.*

**Onun sözlərinə görə, Quba şəhərindəki kütləvi məzarlıqda soyqırımı nəticəsində hədsiz amansızlıq və xüsusi qəddarlıqla öldürülən azərbaycanlılarla yanaşı, ləzgilərin, yəhudilərin, tatların və digər milli azlıqlara mənsub olan minlərlə insanın zorakılığa məruz qaldığı aşkar edilib: "Dövlətimizin başçısı cənab İlham Əliyevin 2009-cu il 30 dekabr tarixli sərəncamı ilə erməni millətçilərinin cinayətkar əməllərinin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Quba şəhərində "Soyqırımı Memorial Kompleksi" yaradılıb. Həmçinin Prezident İlham Əliyevin 2018-ci il yanvarın 28-də imzaladığı 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi ilə bağlı Sərəncamla təkcə Azərbaycanda deyil, dünyanın bir çox guşəsində yaşayan həmvətənlərimiz, diaspor təşkilatları, xaricdəki səfirliklərimiz tərəfindən bu hadisə geniş qeyd olunub".**

**Milli Məclisin deputatı deyib ki, erməni vəhşiliyinə tarixi qələbəmizlə başa çatan 44 günlük Vətən müharibəsinin gedişində də şahid olduq:** "Azərbaycan Ordusunun zəfər yürüşü qarşısında tab gətirə bilməyən düşmən təxribatlara əl ataraq dinc mülki şəxsləri hədəfə almaqla müharibə cinayətləri törədirdi. Azərbaycanın Gəncə, Bərdə, Mingəçevir və digər şəhərləri ballistik raketlərlə, fosforlu və kasetli bombalarla atəşə tuturdu. Nəticədə 100-ə yaxın mülki şəxs, onların arasında uşaqlar, qadınlar həlak olmuşlar. 400-dən çox mülki şəxs yaralanmış, 5 mindən çox ev dağıdılmış və ziyan çəkmişdir".

***"Bu gün fəxarətlə deyə bilərik ki, ermənilərin məkrli əməllərinin cavabı layiqincə verildi. Minilliklərə söykənən şanlı tariximizin ən görkəmli sərkərdələrindən biri, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tarixin gedişini dəyişməyi bacardı, işğal altındakı torpaqlarımızı azad etməklə Azərbaycan xalqını məğlubiyyət girdabından xilas etdi və bununla da Azərbaycan tarixində yeni bir şanlı səhifə açıldı. Cəmi 44 gün ərzində Ermənistanın 30 illik işğalına son qoydu, işğalçı məqsədlərlə yaradılmış və bu çirkin missiyanı icra edən bir ordu məhv edildi. Beynəlxalq təşkilatların bərpa edə bilmədiyi beynəlxalq hüququn pozulmuş prinsiplərini Azərbaycan özü, təkbaşına həll etdi, dünyada sülh və təhlükəsizliyi daim təhdid edən separatizmə tutarlı və layiqli cavab verildi", - deputat qeyd edib.***

"Bu gün fəxarətlə deyə bilərik ki, ermənilərin məkrli əməllərinin cavabı layiqincə verildi. Minilliklərə söykənən şanlı tariximizin ən görkəmli sərkərdələrindən biri, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tarixin gedişini dəyişməyi bacardı, işğal altındakı torpaqlarımızı azad etməklə Azərbaycan xalqını məğlubiyyət girdabından xilas etdi və bununla da Azərbaycan tarixində yeni bir şanlı səhifə açıldı".

**AHİK sədri əlavə edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın bölgəyə gətirdiyi yeni reallıqlar sülh və təhlükəsizliyə əsaslanır və regionun inkişafına təkan verəcək:** "Yaxın gələcəkdə Şərqi Zəngəzurun və Qarabağın əsl sakinləri öz torpaqlarına qayıdacaq və orada əbədi xoşbəxt yaşayacaqlar. Bu istiqamətdə sürətli şəkildə işğaldan azad olunmuş ərazilərimizdə abadlıq-quruculuq işləri aparılır. Demək olar ki, bir çox layihələr yekunlaşıb. Dövlətimizin başçısı cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva yeni tikilən obyektlərin açılışlarını ediblər. Görülən işlər bir daha onu göstərir ki, Şərqi Zəngəzur və Qarabağ Azərbaycanın ən inkişaf etmiş bölgələrindən biri olacaq".

**Sonra çıxış edən Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının tarix üzrə fəlsəfə doktoru Vahid İsmayılov ermənilərin Azərbaycan ərazisinə köçürülməsinin tarixi və məqsədini, bu siyasətin acı nəticələrini, ermənilərin məkrli əməllərini, 1918-ci il mart soyqırımının törədilməsinin əsl səbəblərini xronoloji ardıcıllıqla ətraflı izah edib.**

Azərbaycan Azad Milli Elmlər Akademiyası Azad Həmkarlar İttifaqının sədri **Habil Qurbanov** və "Baku Stil Kompani" MMC İşçiləri Həmkarlar İttifaqı Birliyinin sədri **Asif Abbasov** ermənilərin xalqımıza qarşı törətdiyi soyqırımları haqqında fikirlərini bölüşüblər.

**Tədbirin yekununda S.Möhbalıyev şəhid ailələrinə və qazilərə, müharibə iştirakçılarına bundan sonra da diqqət və qayğı göstərməyin vacibliyini üzv təşkilatların nəzərinə çatdırıb.**

AHİK sədri xüsusilə vurğulayıb ki, dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bütün istiqamətlərdə regionun lider dövlətinə çevrilib və bu nailiyyətlərin kökündə xalqımızın sarsılmaz birliyi dayanır.

**S.Möhbalıyev əminliklə ifadə edib ki, xalqımızın Prezident İlham Əliyevin ətrafında sıx birləşməsi bizi növbəti, daha böyük qələbələrə daşıyacaq və Azərbaycan həmkarlar ittifaqları da bu sarsılmaz birlik naminə üzərinə düşən bütün işləri ləyaqətlə yerinə yetirəcək.**

**AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi**

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə

**Hörmətli Səttar müəllim!**

**Zəngilan rayonundan olan şəhid ailələrinə, qazilərə və aztəminatlı ailələrə bayramlarda və əlamətdar günlərdə göstərdiyiniz xüsusi diqqət və qayğıya görə Sizə dərin təşəkkürümüzü bildiririk. Rayon ictimaiyyəti adından Novruz bayramı münasibətilə Sizi təbrik edirik.**

**Ramiz HƏSƏNOV,**
**Zəngilan Rayon İcra Hakimiyyətinin başçısı**

***

**Hörmətli Səttar müəllim!**

**Balakən rayonunda diqqətə daha çox ehtiyacı olan aztəminatlı ailələrin, əlillərin, ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə sağlamlığını itirmiş və ya şəhid olmuş vətəndaşların ailələrinin Azərbaycan həmkarlar ittifaqları tərəfindən hər zaman diqqətdə saxlanılması və ehtiyaclarının qismən ödənilməsi məqsədilə ərzaq yardımlarının paylanılması təqdirəlayiqdir. Rayonumuzda həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərə öz töhfənizi verdiyiniz üçün şəhid ailələri və aztəminatlı ailələr, həmçinin öz adımdan Sizə minnətdarlığımızı bildiririk. Sizi və rəhbərlik etdiyiniz kollektivi Novruz bayramı münasibətilə təbrik edir və milli dövlətçiliyimizin möhkəmləndirilməsi naminə şərəfli və çətin fəaliyyətinizdə uğurlar arzu edirik.**

**İslam RZAYEV,**
**Balakən Rayon İcra Hakimiyyətinin başçısı**

**Hörmətli Səttar müəllim!**

**Xalqımızın milli adət-ənənələrini özündə əks etdirən, milli bayramımız olan Novruz ərəfəsində Göyçay rayonunda yaşayan şəhid ailələri, qazilər və aztəminatlı ailələr üçün göndərilmiş bayram sovqatına görə Sizə rayon rəhbərliyi adından öz dərin təşəkkür və minnətdarlığımızı bildiririk.**

Hər bayram ərəfəsi, həssas əhali qrupuna aid olan ailələrə ərzaq yardımı göndərməklə, həmin ailələrə böyük diqqət və qayğı göstərirsiniz. Sizin şəxsi təşəbbüsünüzlə həyata keçirilən bu xeyirxahlığa görə yardım almış hər bir aztəminatlı ailə Sizə öz təşəkkürünü çatdırır.

Biz də Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, gələcək işlərinizdə yeni-yeni nailiyyətlər arzulayırıq.

**İkram VƏLİYEV,**
**Göyçay Rayon İcra Hakimiyyətinin başçısı səlahiyyətlərini müvəqqəti icra edən**

***

**Çox hörmətli Səttar müəllim!**

**Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Uca Tanrıdan arzu edirəm ki, bu Novruz həyatınıza qızıl hərflərlə yazılsın. Novruz süfrənizi savab işləriniz bəzəsin. Ailəmizə göndərdiyiniz Novruz sovqatına görə Sizə və möhtərəm Prezidentimiz cənab İlham Əliyevə, Zərdab Rayon İcra Hakimiyyətinin başçısı Mərdan Camalzadəyə dərin minnətdarlığımı bildirirəm.**

Bizə göstərdiyiniz diqqət və qayğıya görə Ulu Tanrı özü Sizi uzun ömür, möhkəm cansağlığı və sonsuz xoşbəxtliklə mükafatlandırsın!

**Səmayə QƏHRƏMANOVA,**
**Zərdab şəhəri, M.Ə.Rəsulzadə küçəsi, ev 30**

# Ulu Öndərin anadan olmasının 99-cu ildönümü münasibətilə minifutbol turnirinə start verilib



**Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin (DİİXİHİ) təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə təşkil edilən minifutbol turnirinin açılış mərasimi keçirilib.**

Mərasimdə çıxış edən **Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini Hikmət Osmanov** turnir iştirakçılarına AHİK sədri, millət vəkili Səttar Möhbalıyevin salamlarını və təbriklərini çatdırdı. Sonra bildirdi ki, Ümummilli Liderin doğum günü ərəfəsində Azərbaycanda və dünyanın bir çox ölkələrində diaspor təşkilatları və səfirliklərimiz tərəfindən müxtəlif tədbirlər təşkil olunur, Müasir Azərbaycanın qurucusu Ulu Öndərin əziz xatirəsi ehtiramla yad edilir. DİİXİHİ Respublika Komitəsi, üzv təşkilatlar da, ənənəvi olaraq, bu dahi insanın ildönümlərini minnətdarlıqla qeyd edir. Bu gün açılışını etdiyimiz minifutbol turniri də bu silsilə tədbirlərin tərkib hissəsidir.



**Hikmət müəllim dahi şəxsiyyətin xalq, dövlətçilik qarşısında xidmətlərinin bəzi məqamlarını diqqətə çatdırıb. Dedi ki, o, Azərbaycanı böyük bəlalardan, faciələrdən xilas edib, ölkəni sabitlik, iqtisadi inkişaf və tərəqqi yoluna çıxarıb, Vətənə sədaqətlə xidmətin əyani nümunəsini yaradıb. Heydər Əliyev qlobal düşüncəli, geniş dünyagörüşlü nəhəng bir siyasətçi idi. O, realist bir insan olaraq hadisələrə praqmatik yanaşırdı, tarixi şəraiti düzgün qiymətləndirmək bacarığına malik idi, ölkənin taleyi üçün uğurlu qərarlar qəbul edirdi. O, beynəlxalq aləmdə tarazlaşdırılmış siyasətin, ölçülüb-biçilmiş fəaliyyətin ustadı idi. Bu dahi siyasət adamı bütün fəaliyyəti boyu müdrik insan, peşəkar rəhbər, xalq məhəbbətini qazanan uzaqgörən siyasətçi və ağıllı dövlət xadimi olduğunu təsdiq etmişdir.**

Təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş ölkəmizin idman siyasəti dövlətimizin başçısı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində beynəlxalq meydanlarda öz müsbət nəticəsini göstərməkdədir. İdmançılarımız iştirak etdikləri bütün yarışlarda Dövlət bayrağımızı qürurla dalğalandırırlar. Artıq Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Olimpiya, dünya və qitə çempionatlarında idmançılarımızın qazandığı yüksək əyarlı medallar bu həqiqətin əyani sübutudur. Azərbaycan həm də beynəlxalq səviyyəli möhtəşəm idman yarışlarının keçirildiyi azsaylı ölkələrdən biridir. AHİK sədrinin müavini Azərbaycanın ev sahibliyi etdiyi "Bakı-2015" Avropa Oyunlarını və IV İslam Həmrəyliyi Oyunlarını yada saldı.

O, çıxışının sonunda turnir iştirakçılarına uğurlar arzuladı.

**Sonra turnirə start verildi.**

**Qeyd edək ki, 4 qrupda mübarizə aparacaq 20 komandanın qalibləri Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ərəfəsində müəyyənləşəcək, qalib komandalara kubok, medallar və pul mükafatları təqdim olunacaq.**

**AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi**

# "Uşaqların doğulanadək cins seçiminə "YOX" deyək!"

***Son dövrlərdə doğumda qızların sayının oğlanlara nisbətdə azaldığı müşahidə olunur. Demoqrafik balansın pozulması son onillikdə orta ümumtəhsil məktəblərinin statistik göstəricilərində daha aydın nəzərə çarpır. Qızların sayının azalma səbəblərini və bunun qarşısının alınma yollarını Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ailə problemləri şöbəsinin müdir müavini Kamala Əliyeva, Elmi Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun həkim-ginekoloqu Aygün Məmmədova və təhsil üzrə ekspert Kamran Əsədovla araşdırdıq.***

**Müasir dövr elmin və texnikanın, yeni texnologiyaların, elmi və praktiki innovasiyaların inkişafı ilə səciyyələnir. Tibb sahəsində inkişaf 3D və 4D rejimində ultrasəs müayinəsi vasitəsilə uşağın cinsini müəyyən etmək imkanı verir. Bu inkişaf isə həm də demoqrafik balansın pozulmasına, uşaqların doğulanadək cins seçiminə görə hamiləliyin süni şəkildə pozulması hallarının və oğlan uşaqlarının sayının artmasına gətirib çıxarır. Bu prosesin nəticəsində isə ölkənin demoqrafik və sosial-iqtisadi inkişafına mənfi təsir müşahidə edilir.**

Ölkəmizdə cins nisbətinin pozulmasının pik nöqtəsi 2009-cu ilə düşür. Həmin vaxtda 100 qıza 118 oğlan düşürdüsə, artıq Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsasən, cins nisbətinin fərqi azalaraq 2020-ci ildə 100 qıza 114 oğlan düşdüyü görünür.

**K.Əliyeva** qeyd etdi ki, dövlət tərəfindən həyata keçirilən islahatlar iqtisadi və sosial inkişafın təmin olunması ilə yanaşı, ölkənin demoqrafik inkişafına, habelə əhali artımına da müsbət təsir göstərir. Əhalinin, xüsusilə də müvafiq müdafiə tədbirlərinə ehtiyacı olan təbəqələrin, natamam ailələrə başçılıq edən qadınların, tənha anaların problemlərinin həlli ilə bağlı imzalanan sərəncam və fərmanlar, dövlət proqramları, layihələr dövlətin bu sahəyə diqqət və qayğısını əks etdirir.

*K.Əliyeva: "...uşaqların doğulanadək cins seçiminin qarşısının alınması məqsədilə mütəmadi olaraq maarifləndirmə tədbirləri həyata keçirilməlidir".*



Bu istiqamətdə komitənin fəaliyyətinə gəlincə isə, tərəfimizdən uşaqların doğulanadək cins seçiminin qarşısının alınması məqsədilə mütəmadi olaraq maarifləndirmə tədbirləri həyata keçirilir. "Uşaqların doğulanadək cins seçiminə "YOX" deyək!" adlı buklet və 11 Oktyabr - Beynəlxalq Qızlar Gününə həsr edilmiş "Qızlarımızın hüquqlarını tanıyaq və qoruyaq! Onlara yüksək dəyər verək!" adlı elektron maarifləndirmə vəsaiti hazırlanıb və komitənin sosial şəbəkə səhifələrində yerləşdirilib.

**Nazirlər Kabinetinin 2020-ci il 24 fevral tarixli 71s nömrəli Sərəncamı ilə "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planı" təsdiq edilmişdir. Planın əsas məqsədi uşaqların doğulanadək cins seçiminin qarşısının alınması və ailələrdə doğulan uşaqlar arasında qız uşağına nisbətən oğlan uşağının sayının azaldılması, bu üstünlüyün kökündə dayanan gender stereotiplərinin aradan qaldırılmasıdır.**

**Sənəddə "Hamiləliyin süni pozulmasına dair sosial göstəricilərin Siyahısı"nın tətbiqinə nəzarətin gücləndirilməsi və erkən nikahların, qızların təhsildən yayınması hallarının qarşısının alınması və aşağıda sadaladığım bir çox məsələlərin həllinə dair bəndlər yer alır:**

*-məktəbəqədər təhsil müəssisələrinin sayının artırılması və fəaliyyətinə nəzarətin gücləndirilməsi;*

*-tək və çoxuşaqlı analara həmin müəssisələrdən istifadə imkanlarının artırılması üçün güzəştlərin tətbiqi;*

*-qadınlar arasında sahibkarlıq fəaliyyətinə dəstəyin artırılması;*

*-qadınlar üçün əmək bazarında ən çox tələb olunan peşə və ixtisaslar üzrə kursların artırılması;*

*-qadınlar arasında sahibkarlıq və özünüməşğulluq fəaliyyətinin stimullaşdırılması;*

*-doğulanlar arasında cins nisbətinin pozulmasının əhalinin demoqrafik strukturuna təsiri və abortların reproduktiv sağlamlığa zərəri haqqında maarifləndirmə işinin aparılması istiqamətində tədbirlərin keçirilməsi nəzərdə tutulur.*

Bu Tədbirlər Planına əsasən, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, eləcə də Komitənin yanında fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək Qadın Resurs mərkəzləri mütəmadi olaraq qadınların fəallığının artırılması, onlar arasında sahibkarlıq və özünüməşğulluq fəaliyyətinin stimullaşdırılması, erkən nikahların qarşısının alınması, qızların hüquqlarının və onların valideynlər üçün dəyərinin təşviqi məqsədilə müxtəlif tədbirlər həyata keçirilir.

**Elmi Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun həkim-ginekoloqu Aygün Məmmədova mövzumuza münasibət bildirərək dedi ki, Ümumdünya Səhiyyə Təşkilatının verdiyi göstəricilərə görə, abort hamiləliyin 22-ci həftəsinə qədər və ya dölün çəkisinin 500 qrama qədər olduğu müddətdə hamiləliyin pozulmasıdır. Cənubi Qafqaz ölkələrində selektiv abortlara tez-tez rast gəlinir və patriarxatlıq olduğu üçün, daha çox qız uşaqlarının doğulmasının qarşısı süni yolla alınır.**

**Aygün həkim** əlavə etdi ki, ölkəmizdə qadının istəyi ilə abort hamiləliyin 12 həftəsinədək icra edilə bilər. Bu müddətdə isə dölün cinsiyyətinin dəqiq təyini ultrasəs müayinəsi (USM) vasitəsilə mümkün deyil. Qadınlarımız körpələrini çox cüzi bir ehtimalla qurban etməməlidirlər. 2021-ci ilin statistikasında da yenidoğulmuşlar arasında oğlanların üstünlük təşkil etdiyi görünür. Selektiv abortların qarşısını almaq üçün cütlüklər arasında maarifləndirmə işləri aparılmalı, abortların tibbi və sosial ziyanları barədə ətraflı məlumat verilməlidir.

*A.Məmmədova: "Qadınlarımız körpələrini çox cüzi bir ehtimalla qurban etməməlidirlər".*

**Təhsil üzrə ekspert Kamran Əsədov dedi ki, hər bir millətin gələcəyinin formalaşmasında ən önəmli amillərdən biri, bəlkə də birincisi keyfiyyətli təhsildir. Təhsilli bir cəmiyyətə sahib olmaq üçün ən vacib amil isə, qızların sahib olduğu təhsil səviyyəsidir. Çünki yalnız qadınların haqlarının qorunması yolunda müəyyən addımlar atıldıqda, cəmiyyətimizdə gender bərabərliyinin bərqərar olmasına nail ola bilərik. Qadınların, qızların təhsil alması çox vacib amildir. Belə ki, son zamanlar genetik tədqiqatlarda, uşaqlara zəka geninin atadan deyil, anadan keçdiyi aşkar edilmişdir. Genetik tədqiqatlarla yanaşı, uşaqların təhsil və zəkası üzərində ananın və ya atanın təsir dərəcəsi haqqında tədqiqat aparan başqa bir elm sahəsi də ekonometrikadır. Bir sıra ekonometrik tədqiqatların nəticələrinə görə, uşaqların zəkası (IQ) və təhsil səviyyəsi üzərində ananın zəkası (IQ) və təhsil səviyyəsi atanın zəkası və təhsil səviyyəsindən daha çox təsirə malikdir. Aparılan tədqiqatların nəticələrindən görünür ki, hər iki valideynin təhsil səviyyəsi uşağın təhsili üzərində müsbət təsirə malikdir. Ancaq uşağın təhsil səviyyəsi üzərində ananın təhsil səviyyəsinin təsiri daha çoxdur.**

*K.Əsədov: "Təhsilli bir cəmiyyətə sahib olmaq üçün ən vacib amil isə, qızların sahib olduğu təhsil səviyyəsidir".*

K.Əsədov qeyd etdi ki, Azərbaycanda təhsil alan orta ixtisas təhsili müəssisələrinin şagirdlərinin 60 faizindən çoxu qadınlardır.

Orta ixtisas məktəbləri ilə müqayisədə ali məktəblərdə təhsil alan qadın tələbələrin sayı isə daha azdır. Kolleclərdə təhsil alan tələbələrin 60 faizindən çoxu qadınlar olduğu halda, ali məktəblərdə oxuyan qadın tələbələr bütün tələbələrin tam olaraq yarısını da təşkil etmir.

Belə ki, 2019-2020-ci tədris ilində orta ixtisas təhsili müəssisələrinin 51 702 tələbəsi olub ki, onların da 34 308 nəfəri - 66,3 faizi qadın olub. Bu faiz 2011-2012-ci tədris ilində bir az da azalaraq bütün tələbələrin 65,8 faizini təşkil edib.

**Düşünürəm ki, qadınların təhsilə cəlb olunması üçün onlara təhsil haqqında güzəştlər edilməli, digər təhsilalma formalarını tətbiq etmək lazımdır. Əgər onlar əyani təhsilə cəlb oluna bilmirlərsə, qiyabi, distant təhsilə cəlb etməklə qadınların təhsilalma faizini yüksəltmək olar. İndiyə qədər şəhər və kənd yerlərində qızların təhsildən yayınması halları baş verirdi. Bu səbəblərin kökündə isə insanların maddi ehtiyaclarının ödənilməsi dururdu. Qeyd edim ki, daha çox yuxarı sinif şagirdlərinin məktəbə gəlməsi problemə çevrilir ki, bu da qızların erkən yaşda nikaha daxil olması ilə əlaqədardır. Kənd yerlərində qızlar adətən səkkizinci sinifdə oxuyarkən nişanlanır, bununla da onların təhsil alması arxa plana keçir. Belə hallar respublikanın şimal və cənub rayonlarında daha geniş yayılıb.**

**Əsli TELMANQIZI**



# İki yüz il ərzində əldə etdikləri 44 günə darmadağın olundu

**Beynəlxalq hüquqa əsasən, soyqırımı sülh və insanlıq əleyhinə yönəlmiş əməl olmaqla, ən ağır cinayət hesab edilir. Təəssüflər olsun ki, ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırımı aktlarına dair kifayət qədər əsaslı sübut və dəlillər olsa da, bu cinayətlərə düzgün qiymət verilməyib. Hələ də Azərbaycana münasibətdə ikili standartlar nümayiş etdirilməkdədir.**

**1918-ci ilin mart soyqırımları öz amansızlığına və miqyasına görə təkcə Azərbaycan tarixində deyil, bəşər tarixində də ən qanlı faciələrdən biridir. Əllərinə düşən fürsətdən istifadə edən ermənilər uşaq, qoca, qadın demədən minlərlə insanı qılıncdan, süngüdən keçirib, diri-diri yandırıblar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıdıblar. Azərbaycanlıların soyqırımı təkcə Bakıda deyil, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda, Gəncədə və digər bölgələrdə xüsusi qəddarlıqla həyata keçirilib. Qədim Azərbaycan torpağı olan İrəvan şəhərində və onun ətrafında 199 kənd dağıdılıb, 135 minə yaxın azərbaycanlı qətlə yetirilib.**

Bu soyqırımı aktının baş verdiyi tarixdən bir əsrdən artıq zaman keçməsinə baxmayaraq, o qanlı hadisələr unudulmayıb və xalqımızın qan yaddaşında silinməz izlər qoyub. Tarixin səhifələri vərəqləndikcə yeni-yeni faktlar, erməni vəhşiliyinin tükürpərdən səhnələri üzə çıxır.

**Milli Məclisin sədr müavini Fəzail İbrahimli** qəzetimizə müsahibəsində bildirib ki, 31 mart soyqırımından danışdıqda bu hadisələrin yalnız mart ayında baş verməsi kimi xarakterizə etmək yanlış elmi yanaşma olar. İlk növbədə bu soyqırıma qədər olan tarixi dövrə nəzər salmaq lazımdır. Xalqımıza qarşı erməni millətçilərinin törətdiyi soyqırımı siyasətinin tarixi XVIII əsrin əvvəllərindən başlayır. Birinci Pyotrun vəsiyyətlərindən başlayaraq Qafqaz siyasəti və bu siyasətin ermənilər tərəfindən reallaşdırılması məhz qeyd etdiyim bu faciələrin yaranmasına səbəb olub. İlk dəfə olaraq üç erməni katalikosunu qəbul edən Birinci Pyotr, onların istəklərinə uyğun olaraq, Xəzəryanı vilayətlərdə yerləşdirilməsi əvəzində siyasətinin dəstəklənəcəyi vədini alır. Onun göstərişinə əsasən ələ keçirilmiş torpaqlarda - Bakıda, Dərbənddə, Gilanda və başqa yerlərdə, yerli əhalinin sıxışdırılması hesabına, ermənilərin məskunlaşdırılması üçün hər cür şərait yaradılır. Sonradan bu addım Rusiyanın xarici siyasət kursuna çevrilir. Yüz ildən sonra Birinci Pyotrun bu vəsiyyəti reallaşdırılır. 1828-ci ildə imzalanan Türkmənçay sülh müqaviləsinə əsasən, İrandan 40 minə qədər, Türkiyədən isə 84 minə qədər erməni Azərbaycan ərazilərində yerləşdirilir. Bu qanlı hadisələrin kökü də həmin dövrdən başlayır.

**Ermənilər əllərinə düşən fürsətdən istifadə edərək öz məkrli siyasətlərini həyata keçirmək, ölkəmizin tarixi ərazisində erməni dövləti qurmaq məqsədilə Azərbaycanın müxtəlif bölgələrində soydaşlarımıza qarşı dəhşətli qırğınlar törətmişdilər. Onların düşünülmüş və planlı şəkildə davam edən soyqırımı siyasəti nəticəsində minlərlə günahsız azərbaycanlı vəhşicəsinə qətlə yetirilmiş, evləri yandırılmış, əmlakları qarət olunmuşdur.**

Niyə bu hadisələr 1918-ci ilin mart ayında baş verdi? 1917-ci ildə Rusiyada hakimiyyətə gələn bolşeviklərin əsas istəyi keçmiş Rusiya sərhədləri daxilində yeni bir imperiya yaratmaq idi. Yaranmış fürsətdən istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa başladılar. 1918-ci ilin martında Stepan Şaumyan Qafqazın fövqəladə komissarı təyin edildi və Bakıya göndərildi. Həmin vaxtdan daşnak-bolşevik Şaumyanın rəhbərliyi ilə Bakı Kommunası Bakı şəhərini azərbaycanlılardan təmizləmək kimi mənfur bir planı həyata keçirməyə qalxmışdı.

**Ermənilərin tarixən azərbaycanlılara qarşı münasibətində iki məqam özünü büruzə verir: birincisi, Moskvanın siyasətini çox məmnuniyyətlə icra etmək, ikincisi, bu icra prosesində erməniçiliyi təbliğ edərək türkə qarşı düşmənçilik aparmaq.**

Məlumdur ki, 1915-ci ildə Türkiyə dövləti özünün təhlükəsizliyini qorumaq məqsədilə ermənilərin kütləvi şəkildə köçürülmələri haqqında qərar verdi. Ərazilərimizə soxulan ermənilər bunun da qisasını Bakıdan alırdılar. Nəticədə 1918-ci il mart ayının 30-dan başlayaraq həmin ilin sentyabrın 15-dək, yəni Qafqaz İslam Ordusu Bakıya gələnə qədər Azərbaycanda soyqırımı davam edib.

İki yüz ildən artıq xristian ağuşunda özünə yer tutan, xristian dünyasının və böyük dövlətlərin Qafqaz siyasətini həyata keçirən ermənilər üçün əsas hədəf Azərbaycan olub. Bu məkrli niyyətlərindən istifadə edərək özlərinin böyük Ermənistan ideologiyasını reallaşdırmağa cəhd ediblər. Amma arzularına çata bilməyiblər.

Azərbaycan dünyada yeganə dövlətlərdəndir ki, bütün çətinliklərə baxmayaraq, varlığını qoruyub saxlaya bilib.

**Böyük Ermənistan arzusunda olan ermənilər 44 günlük Vətən müharibəsində məğlub oldular. Bu məğlubiyyət ilə Azərbaycan Prezidenti, Ordusu və xalqı onların arzularını ürəklərində qoydular. İki yüz il ərzində əldə etdikləri "uğurlar" 44 gün ərzində darmadağın edildi, demək, bu siyasət yanlışdır, gələcəyi yoxdur, uğursuzdur. Azərbaycan dövlət başçısnın qətiyyəti, iradəsi, diplomatik gedişləri, xalqımızın bütövlüyü, ən əsası isə Ordumuzun qüdrəti sayəsində torpaqlarımız işğaldan azad olundu. İndi şəhidlərimizin ruhu da şaddır.**

**Azər MUSTAFAYEV**

# Müraciətlərə məsuliyyətlə yanaşılıb

**Martın 16-da Kənd Təsərrüfatı və Qida Sənayesi İşçiləri Həmkarlar İttifaqının İcraiyyə Komitəsinin onlayn formatda iclası keçirilib. İclası giriş sözü ilə açan Federasiyanın sədri Tofiq Quliyev tədbir iştirakçılarını və Azərbaycan xalqını qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik etdi və gündəlikdə duran məsələləri diqqətə çatdırdı. İlk olaraq "2021-ci il ərzində Federasiyaya və üzv təşkilatlarına daxil olmuş ərizə və şikayətlərin təhlili barədə" məsələ müzakirəyə çıxarıldı. Məsələ ilə bağlı təqdim olunan hesabatda bildirildi ki, sahə üzrə 2021-ci ildə həmkarlar ittifaqı üzvlərindən 5425 ərizə və şikayət, o cümlədən elektron poçt vasitəsilə 410 müraciət daxil olub. Onlardan 98,6 faizi müsbət həll edilib.**




Federasiyaya 322 nəfər ittifaq üzvü müraciət edib. Onların 215 nəfəri sədr, digər hissəsi isə sədr müavini, şöbə müdirləri tərəfindən qəbul olunub. Qəbul zamanı qaldırılan məsələlər həllini tapıb.

2021-ci il ərzində əmək hüquqlarının müdafiəsi ilə bağlı daxil olan ərizə və şikayətlərin 22-si işə bərpa ilə əlaqədar olub. Araşdırmalardan sonra 20 işçinin işə bərpa hüququ təmin edilib.

İttifaq üzvlərinin müraciətlərinə göstərilən diqqət və qayğıya görə Federasiyanın ünvanına 5 təşəkkür məktubu göndərilib.

İclasda qəbul edilmiş qərarda üzv təşkilatların rəhbərlərinə tövsiyə olunub ki, həmkarlar ittifaqı üzvlərindən daxil olan məktublar obyektiv şəkildə, hərtərəfli araşdırılsın. Faktların təsdiqi müqabilində qaldırılan məsələlərin həllinə köməklik göstərilsin. Təkrar müraciətlərin səbəbləri aydınlaşdırılsın.

**"Həmkarlar ittifaqı təşkilatlarının 2021-ci il üzrə statistik hesabatı haqqında" məsələ ilə bağlı hesabatda qeyd olunub ki, ötən il 2020-ci illə müqayisədə həmkarlar ittifaqı üzvlərinin sayı 2 faiz azalmışdır. Buna baxmayaraq, kiçik və orta sahibkarlıq, xarici və birgə müəssisələrdə ötən il ərzində həmkarlar ittifaqı təşkilatlarının sayında 1,7 faiz, həmkarlar ittifaqı üzvlərinin sayında isə 2,7 faiz artım müşahidə olunmuşdur.**

Hesabatda gənclərin həmkarlar ittifaqına marağının artması yaxşı hal kimi qiymətləndirilmişdir. Bildirilmişdir ki, gənc üzvlərin sayı 19 faiz artmışdır.

Pandemiya ilə əlaqədar olaraq 2021-2022-ci illər üçün həmkarlar ittifaqı kadr və fəallarının təhsil planı mərhələlərlə onlayn formatda həyata keçirilir. Belə ki, 2022-ci ildə 25 nəfərin təhsilə cəlb olunması planlaşdırılır.

Müzakirələrdən sonra Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının 2022-ci il üçün təhsil planı təsdiq edilib.

**Daha sonra gündəlikdə olan digər məsələlər, o cümlədən cari və təşkilati məsələlərə dair müzakirələr aparılıb, müvafiq qərarlar qəbul edilib.**

# Qaliblər mükafatlandırıldılar

**Gənc istedadları seçib üzə çıxarmaq, onların hüquqlarını qorumaq, yaradıcılıq potensialını inkişaf etdirmək həmkarlar ittifaqlarının daim diqqət mərkəzində olub.**



Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə yaranan Cəmşid Naxçıvanski adına Hərbi Liseydə bu gün Azərbaycan gənci vətənpərvər ruhda böyüyüb tərbiyə alır, eləcə də hərbi biliklərə yiyələnərək orduya savadlı və bacarıqlı zabitlər kimi yetişir. Liseyin yetirmələri dövlətimizin ərazi bütövlüyü, müstəqilliyi, dövlətçiliyi naminə canlarını belə əsirgəməyərək istər Aprel döyüşlərində, istər I Qarabağ müharibəsində, istərsə də 44 gün davam etmiş Vətən müharibəsində qəhrəmancasına vuruşaraq adlarını Azərbaycan tarixinin salnaməsinə qızıl hərflərlə yazıblar.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası artıq 20 ildən çoxdur ki, mədəni hamiliyə götürdüyü C.Naxçıvanski adına Hərbi Liseydə mütəmadi olaraq gəncləri ləyaqətli xidmətə həvəsləndirən mədəni - kütləvi tədbirlər həyata keçirir.

**Martın 18-də Novruz bayramı ərəfəsində hərbi liseydə kursantlar arasında 2021-ci ilin oktyabr ayının 20-si keçirilmiş "9 Noyabr-Dövlət Bayrağı Günü"nə həsr edilən inşa - yazı müsabiqəsinin, eləcə də dekabrın 20-dən 24-nə qədər keçirilən Azərbaycanın Milli Qəhrəmanı Elşad Saday oğlu Əhədovun xatirəsinə həsr edilmiş şahmat yarışlarının qaliblərinin AHİK-in diplomları və hədiyyələri ilə təltif edilməsi ilə əlaqədar tədbir təşkil edilmişdir.**

Liseyin inşa-yazı müsabiqəsinin qalibləri - 154-cü tağımın kursantı Elariz Eldəniz oğlu Mustafayev I yerə, 222-ci tağımın kursantı Azər Arif oğlu Rzayev II yerə, 144-cü tağımın kursantı Ramiz Ariz oğlu Qocayev III yerə, Azərbaycanın Milli Qəhrəmanı Elşad Saday oğlu Əhədovun xatirəsinə həsr edilmiş şahmat yarışlarının qalibləri - şəxsi birincilik üzrə 154-cü tağımın kursantı Amin Cəlal oğlu Əhədov I yerə, 222-ci tağımın kursantı Rövşən Səyyad oğlu Nemətli II yerə, 144-cü tağımın kursantı Edvin Yaqub oğlu Əmirbəyov III yerə layiq görülmüşlər. 2 bölük və 4 fərqlənən iştirakçı ilə birlikdə bütün qaliblər AHİK-in diplomu və qiymətli hədiyyələri ilə mükafatlandırıldılar.

Tədbir zamanı liseydə inşa-yazı müsabiqəsinin, eləcə də şahmat yarışlarının keçirilməsində və təşkilində yaxından iştirakı, xüsusi fəaliyyətləri nəzərə alınaraq, Azərbaycan dili və ədədbiyyatı fənn bölməsinin rəisi, polkovnik - leytenant Ceyran Abbasova və fiziki hazırlıq fənn bölməsinin müəllimi, eyni zamanda oyunların baş hakimi Ağaverdi Məmmədov AHİK-in diplomu ilə təltif edildilər.

**C.Naxçıvanski adına Hərbi Liseyin rəisi vəzifəsini icra edən, lisey rəisinin tədris üzrə müavini - şöbə rəisi, polkovnik Saday Balayev və bu yazının müəllifi qalibləri Novruz bayramı münasibətilə təbrik edərək onlara gələcək işlərində və hərbi təhsildə müvəffəqiyyətlər arzuladılar.**

**Afaq YUSİFOVA,**
**AHİK-in mütəxəssisi**

# Vergi orqanları 2 ayda büdcəyə 550 milyon manatdan çox vəsait ödəyib

**Pandemiyanın iqtisadi sektorlarda yaratdığı təsirli məhdudiyyətlərin 2021-ci ilin ortalarından etibarən aradan qalxması və 2022-ci ilin yanvar ayından isə iqtisadiyyatın tamamilə bərpa və yeni inkişaf fazasına daxil olması biznesin fəaliyyətini və gəlirlərini də əhəmiyyətli dərəcədə artırıb. Cari ilin yanvar-fevral aylarında yeni sahibkarlıq fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinin sayı 10 faiz artaraq 1 milyon 352 mini ötübdür. Həmin vergi ödəyicilərinin 87,9%-i fiziki, 12,1%-i isə hüquqi şəxslərdir. Son 1 ildə fərdi sahibkarların sayı 10,1%, müəssisə və təşkilatların sayı isə sayı isə 7,8% çoxalıb. Beləliklə, həm biznesə yeni başlayan sahibkarların sayının artması, həm də onların gəlir əldə etmək imkanlarının yaxşılaşması nəticəsində vergi daxilolmalarında da əhəmiyyətli artımlar baş verib. Belə ki, 2022-ci ilin yanvar-fevral aylarında vergi daxilolmaları ötən ilin eyni dövrü ilə müqayisədə 25,2% artaraq 1 milyard 830,4 mln. manat təşkil edib və proqnoz 108,7% səviyyəsində icra olunub. Yəni vergi orqanları 2 ayda büdcəyə proqnozdan əlavə 150 milyon manatdan çox vəsait ödəyib.**

Daxilolmaların strukturuna nəzər yetirsək görərik ki, dövlət büdcəsinə əlavə gəlirlərin mühüm payı qeyri-neft-qaz sektorundan ödənilən vergilərin yüksək artım dinamikası ilə bağlıdır. Özü də əvvəlki illərə rəğmən, daha çox artım faizləri müşahidə edilir. Belə ki, pandemiyadan əvvəl qeyri-neft sektoru üzrə daxilolmalar adətən illik 10-12 faiz təşkil edirdisə, indi bu rəqəm 30 faizdən də çoxdur. Məsələn, 2022-ci ilin yanvar-fevral aylarında vergi daxilolmalarının strukturunda qeyri-neft gəlirləri 41,8% artaraq 1 milyard 398 milyon manata bərabər olub. Bu, həm də onu təsdiqləyir ki, iqtisadiyyatın yığım potensialının böyük bir hissəsi, yəni 76,5 faizi birbaşa neftdən kənar sahələrin hesabına formalaşır. Neft gəlirləri ümumi vergi daxilolmalarında cəmi 23,5 faizə bərabərdir. Beləliklə, qeyri-neft bölmələrindən əlavə vergi daxilolmaları fiskal dayanıqlığın hədsiz dərəcədə güclənməsində fundamental rol oynayır.




**Onu da nəzərə almaq lazımdır ki, bu dinamika sahibkarlığın inkişafının sürətlənməsi məqsədilə vergi stimullarının tətbiqi şəraitində müşahidə olunur. Qeyri-neft-qaz sektorundan vergi daxilolmaları üzrə proqnozun yüksək icra səviyyəsi və artım dinamikasının iqtisadi artımla müqayisədə əhəmiyyətli dərəcədə yuxarı olması dövlət büdcəsinin fiskal dayanıqlığının gücləndirilməsinə və qeyri-neft büdcə kəsirinin azaldılmasına yönəldilmiş yeni büdcə qaydalarının effektiv tətbiqinə imkan verir.**

Vergi daxilolmalarının artması, sözsüz ki, dövlət büdcəsinin gəlirlərinin də artmasına səbəb olub. 2022-ci ilin yanvar-fevral aylarında dövlət büdcəsinin gəlirləri 4 milyard 626,1 milyon manat təşkil edib. Gömrük daxilolmalarını və neft transfertlərini də əlavə etdikdə, ümumilikdə büdcənin bütün xərcləri icra edildikdən sonra əlavə 2 milyard manat xəzinə qalığı, profisit yaranıb.

Bəs büdcə gəlirlərinin və vergi daxilolmalarının əhəmiyyətli artımını təmin edən əsas iqtisadi amillər nədir?

**Məlum olduğu kimi, son 3 ildə ardıcıl olaraq hər il vergi qanunvericiliyinə əsaslı dəyişikliklər edilir. Həmin dəyişikliklərin əsas istiqamətləri biznesin vergi yükünün azaldılması və onların vergi ödəmə potensiallarının artırılmasını təşviq etməkdir. Məhz bu tədbirlər sayəsində qeyri-leqal iqtisadiyyatın aradan qaldırılması və iqtisadiyyatın şəffaflaşdırılması, sahibkarlığın inkişafının dəstəklənməsi, vergitutma bazasının genişləndirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində kifayət qədər müsbət nəticələr əldə olunub. Nəticədə qeyri-leqal dövriyyə azalır və sahibkarlar öz gəlirlərini "ağartmaqla", həmçinin iş yerlərini leqallaşdırmaqla dövriyyələrinin uçotunu tam açıq bəyan edirlər və vergidən yayınma azalır. Bütün bunların hesabına dövriyyədən kənarda qalan vergilər də büdcəyə cəlb olunur və verginin həcmi də çoxalır. Həmçinin qeyri-neft bölməsində aksiz vergi ödəyicilərinin payının da əhəmiyyətli artımı nəzərə çarpır.**

Vergi gəlirlərinin artmasına səbəb olan ən mühüm amillərdən biri də əmək bazarının şəffaflaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdir. Belə ki, sahibkarların iş yerlərini və verilən əməkhaqlarını rəsmiləşdirməsi üçün vergi qanunvericiliyində onlara vergi stimulları müəyyən edilib və nəticədə hər ay əmək müqavilələri və rəsmi iş yerləri ilə bağlı elektron dövriyyədə e-əmək müqavilələrinin sayının artması müşahidə edilir. Bu, nəticə etibarilə biznes sektorunda əməkhaqqı fondunun artım templərinə də səbəb olmuş, sosial gəlir vergisinin illik ən azı 12-15 faiz yüksəlməsini təmin edibdir. Bu fiskal siyasət büdcə üçün orta hesabla illik 300 milyon manat vergi itkisinə səbəb olsa da, əslində əməkhaqqı fondunun "ağarması" hesabına DSMF-yə daha çox sosial sığorta vergisi daxil olmaqla həmin "itkini" nəinki kompensasiya edib, həm də sosial sığorta ödənişlərinin ən azı 350 milyon manat çoxalmasına gətirib çıxarıb. Ən əsası isə büdcədə uzunmüddətli sosial gəlir mənbələrinin yaradılmasına nail olunub.

**Şəffaflaşma indikatorlarından biri də ƏDV ödəyicilərinin sayının və ƏDV-yə cəlb olunan dövriyyələrin artımıdır. Son 3 ildə aktiv ƏDV ödəyicilərinin sayı 30 faizdən çox artıb. Digər mühüm indikator malların, işlərin və xidmətlərin təqdim edilməsi zamanı "e-qaimə" ilə rəsmiləşən dövriyyələrin artımıdır. Məsələn, 2021-ci ildə təkcə qeyri-neft-qaz sektorunda ƏDV ödəyicilərində "e-qaimə" ilə rəsmiləşən dövriyyələrin həcmi əvvəlki illə müqayisədə 16 faiz artımla qeydə alınıb.**

**Elbrus CƏFƏROV**

# Fərrux hadisələrini regionda gedən siyasi və hərbi proseslərin tərkib hissəsi hesab etmək olarmı?



**Son günlər Qarabağda baş verənlər, Xocalı rayonunun Fərrux kəndinin geri qaytarılması, Rusiya tərəfinin imzalanmış üçtərəfli, ikitərəfli rəsmi sənədlərin tələblərinə məhəl qoymaması bir yana, üstəlik, Azərbaycanı "atəşkəsi pozmaqda" ittiham etməsi kimi məsələlər Kütləvi informasiya vasitələrinin əsas gündəmini zəbt edir.**

***Azərbaycana qarşı bu cür ədalətsiz münasibət nədən qaynaqlanır? Fərrux hadisələri niyə məhz indi baş verdi? Bu hadisələrin baş verməsinə səbəb nədir? Onu regionda gedən siyasi və hərbi proseslərin tərkib hissəsi hesab etmək olarmı?***

Narahatlıq doğuran bu və digər suallarla **"Qafqaz: əməkdaşlıq və inteqrasiya" Klubunun sədri, politoloq Anar Əliyevə** müraciət etdik. Anar müəllim dedi:

- Fərrux hadisələri əslində yeni bir prosesin başlanğıcı deyil. Bu, münaqişənin hərbi fazasının bitməsinin və Ermənistan-Azərbaycan arasında münasibətlərin tənzimlənməsini diplomatik yollarla tapılması istiqamətində atılan addımların məntiqi davamı idi. Çünki təxminən il yarımdır Azərbaycan Ermənistanı müxtəlif platformalarda 2020-ci il 10 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr bəyanatları ilə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə və sülh müqaviləsi imzalamağa dəvət edirdi. Xüsusilə də 10 noyabr bəyannaməsinin 4-cü bəndinin tələblərinə uyğun olaraq, Azərbaycan ərazisindən erməni silahlı qüvvələrinin qalıqlarının çıxarılması, Ermənistan-Azərbaycan arasında sərhədlərin dəqiqləşdirilməsinə xidmət edən delimitasiya və demarkasiya prosesinin həyata keçirilməsinə və Ermənistanın Üçtərəfli bəyanatla üzərinə götürdüyü, Ermənistan ərazisindən keçməklə, Azərbaycanın qərb rayonlarını Naxçıvanla birləşdirəcək kommunikasiya xətlərinin açılması istiqamətində real işlərin, addımların atılmasına çağırırdı. Təəssüf ki, Ermənistan tərəfi ötən dövr ərzində müxtəlif bəhanələrlə üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsindən yayınmağa və bu öhdəliklərin icrasının uzadılmasına çalışırdı. Və bu proseslərin gedişatı onu göstərirdi ki, Azərbaycan beynəlxalq hüquqda da tanınan məcburetmə prosesinin (process of coercion) zəruri olduğunu artıq qəbul etdi və bu istiqamətdə addımlar atmağa başladı. Xüsusilə işğaldan azad olunmuş bir çox ərazilərimizin daim atəş altında saxlanılmasına şərait yaradan Fərrux zirvəsinin geri qaytarılması Ermənistanı çıxılmaz vəziyyətə saldı və Azərbaycanla təcili sülh bağlamaq məcburiyyətində olduğunu bir daha dərk etdirdi. Bayaq da qeyd etdiyim kimi, Fərrux hadisələri təsadüfi hadisə deyildi. Bu hadisələrin indi baş verməsi əslində həm də regionda gedən siyasi-diplomatik proseslərin və Ermənistanın mümkün qədər sülh danışıqlarından yayınma istiqamətində atdığı addımların məntiqi nəticəsi idi.

***- Fərrux hadisələrinə münasibət bildirərkən həm Azərbaycan, həm Rusiya, həm də Ermənistan imzalanmış bəyannamələrə istinad edirlər. Hər bir tərəf də bu sənədlərə "öz məntiqi" ilə yanaşır. Bu nə ilə bağlıdır? Sözügedən sənədlərin, belə desək, tam olmaması ilə, yoxsa, sadəcə olaraq, hər tərəfin öz mövqeyini ortaya qoyması ilə?***

- Bu hadisələrə Rusiya Ermənistanın maraqlarına xidmət etmək məqsədilə, tamamilə reallıqlara uyğun olmayan, münasibət bildirməyə çalışdı. Rusiya Müdafiə Nazirliyi (MN) baş verən hadisələrə dair verdiyi bəyanatlarla separatçı tör-töküntülərin fəallaşmasına şərait yaratmaq istədi. Daha dəqiq desək, bu, sırf erməni maraqlarına xidmət etmək və ermənilərin mümkün qədər könülünü almaq üçün atılan addım idi. Ancaq Azərbaycan MN-i kifayət qədər sərt dildə və diplomatik tərzdə Rusiya MN-in yanlış bəyanatına cavab verdi. Hesab edirəm ki, bu, bəyanatdan daha çox nota idi.

***- Rusiya MN-in saytında Fərrux kəndi ilə bağlı yerləşdirilmiş məlumat ekspertlər tərəfindən müxtəlif cür yozulur. Bəzilərinə görə, dezinformasiya yaymaqla Azərbaycan cəmiyyətində çaxnaşma, hakimiyyətə və orduya qarşı inamsızlıq, etiraz yaratmaq məqsədi güdülür. Digər bir versiya isə, Rusiyanın ermənilərin gözündə özünün "himayəçi" imicini yaratmaq və beləliklə, Paşinyan hakimiyyətinin qərbyönümlü siyasətinin qarşısını almaqdır. Başqa versiyalar da var. Bu barədə də fikrinizi öyrənmək istəyərdim.***

**- Rusiya MN-in verdiyi bəyanat 10 noyabr razılaşmasından sonra Azərbaycana qarşı həyata keçirilən informasiya müharibəsinin mühüm tərkib elementlərindən biridir. Bu addımı ilə Rusiya Azərbaycana qarşı dezinformasiya yaymaqda və Azərbaycan cəmiyyətində çaxnaşma, yanlış təsəvvürlər formalaşdırmaqda tərəf kimi iştirakçıya çevrildi. Burda da bir neçə məqsəd var. Birincisi, bir yumruq kimi birləşmiş Azərbaycan cəmiyyətinin parçalanmasına və hakimiyyətdə müəyyən narazılıqların formalaşdırılmasına nail olmaqdır. Digər bir tərəfdən də, bunu Rusiya-Ukrayna prosesləri fonunda dünyanın Rusiyaya qarşı çox kəskin sanksiyalar tətbiq etdiyi dövrdə Ermənistanda Rusiya əleyhinə olan revanşistlərin könlünü almaq üçün müəyyən bir jest kimi də qiymətləndirmək olar. Bunu Rusiyanın ermənilərin gözündə özünü "doğrultması", Azərbaycana münasibətdə Ermənistanı "himayə etməyə" çalışdığını göstərmək cəhdi kimi də qiymətləndirə bilərik. Amma burda vacib məqamlardan biri Azərbaycanın müstəqil xarici siyasət yeritməsi, xüsusilə Cənubi Qafqazda baş verən proseslərin yalnız Azərbaycan dövlətinin iradəsindən asılı olması ilə Rusiyanın barışmaq istəməməsidir. Təbii ki, bu məsələyə Azərbaycanın Türkiyə ilə qardaşlıq münasibətləri də təsir edir. Bu mənada hesab edirəm ki, Rusiya tərəfi bölgədə separatçıları ayaqda saxlamaqla, revanşist qüvvələrə Azərbaycanla münasibətlərin normalaşmasına qarşı əks mövqe nümayiş etdirmələri üçün onlara dəstək verməklə bizə qarşı təzyiq mexanizmləri formalaşdırmaq və bununla da Cənubi Qafqazda baş verən proseslərin yenidən hərəkətverici qüvvəsinə çevrilmək istəyir. Ancaq Türkiyə ilə birgə koordinə olunmuş şəkildə həyata keçirilən düzgün, düşünülmüş siyasəti nəticəsində bundan sonra da Cənubi Qafqazda baş verən hadisə və proseslərin avanqardı rolunda məhz Azərbaycan dövləti və onun maraqları dayanacaqdır.**

***- Rusiya Dövlət Duması qanun layihəsi təsdiq edib. Belə ki, Dövlət Duması rus dilini bilənlərin hamısını "həmvətən" kimi tanımağa hazırlaşır. Rusiyanın həyata keçirmək istədiyi bu qərar hansı addımlara hesablanıb?***

-Bəli, təəssüf ki, Rusiya dövlətində hələ də imperializmin bərpa olunması istəyi ilə bağlı zaman-zaman iddialar səslənməkdədir. Dövlət Dumasının belə bir qanun qəbul etməsi də həmin istəklərin müəyyən qədər rəsmiləşdirilməsindən xəbər verir. Hesab edirəm ki, keçmiş Sovet respublikalarında rusdilli əhalinin sayının çox olması və onların guya "pozulmuş hüquqlarının" bərpası istiqamətində Rusiya tərəfindən addımların atılması istəyi bu qanunun qəbul edilməsi ilə nəticələnib. Təbii ki, Rusiya Dövlət Dumasının rus dilini bilənlərin hamısını "həmvətən" kimi tanımağa hazırlaşması əslində suveren dövlətlərin hüquqlarına və beynəlxalq hüququn dövlətlərin daxili işlərinə qarışmamaq, müdaxilə etməmək kimi vacib prinsipinin tələblərini pozmaqdır. Düşünürəm ki, Ukraynaya qarşı təcavüzdən sonra dünya birliyinin Rusiyaya qarşı birləşməsi və tətbiq etdikləri genişvektorlu sanksiyalar toplusu onları bir dövlət olaraq həm iddialarından geri çəkilməyə, həm də bu iddiaları həyata keçirmək üçün arxalandığı iqtisadi gücünə çox ciddi zərbələr vuracaq, bu zəifləmələr nəticəsində isə Rusiya dövlətinin imperialist iddiaları da arxa plana keçəcəkdir.

**Müsahibəni apardı:**
**Aliyə SƏMƏDOVA**

# Bayram sovqatları və bayram xonçaları payladılar



**Novruz bayramı ölkəmizdə böyük təmtəraqla qarşılanır. Elə bir dövlət qurumu, ictimai təşkilat yoxdur ki, orada Novruz əhval-ruhiyyəsi olmasın. Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) da bu bayram xüsusi qeyd edildi. AMEA Azad Həmkarlar İttifaqının ilk təşkilatlarından olan İdarəetmə Sistemləri, Fizika, İqtisadiyyat, Riyaziyyat və Mexanika, Kataliz və Qeyri-Üzvi Kimya, Dilçilik, Şərqşünaslıq institutları, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Botanika, Fiziologiya, Arxeologiya, Etnoqrafiya və Antropologiya, Neft-Kimya Prosesləri, Aşqarlar Kimyası, Polimer Materiallar, Molekulyar Biologiya və Biotexnika və Neft və Qaz institutlarının həmkarlar ittifaqı təşkilatları öz əməkdaşlarının uşaqlarına Novruz bayramı münasibətilə hədiyyəli biletlər alıb payladılar.**

Bundan başqa, Fəlsəfə və Sosiologiya, Ədəbiyyat, Dilçilik, Hüquq və İnsan Haqları, Geologiya və Geofizika, Elm Tarixi, İqtisadiyyat, Dendrologiya, İnformasiya Texnologiyaları institutları, Akademiyanın Rəyasət Heyəti, Gəncə Bölməsi, Respublika Seysmoloji Xidmət Mərkəzi, Şəki Regional Elmi Mərkəzinin həmkarlar ittifaqı təşkilatlarının əməkdaşlarına bayram sovqatları və bayram xonçaları payladılar.

**Fəlsəfə və Sosiologiya İnstitutunun Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə Novruz bayramı ərəfəsində bir qrup əməkdaş Vətən müharibəsi qəhrəmanları - şəhid Surxay Əbdül oğlu Noçuyev, Teymur Abbasov və Murad Nağıyevin ailələrini ziyarət edib, onlara bayram sovqatları və azyaşlı övladlarına hədiyyələr təqdim etdilər.**




**Büdcədən maliyyələşməyən təsərrüfat hesablı Açıq Səhmdar Cəmiyyətdə işləyirəm. Bilmək istəyirəm ki, 65 yaşım tamam olduqda məni məcburən pensiyaya göndərə bilərlərmi, yoxsa qalib əmək fəaliyyətimi davam etdirə bilərəmmi?**

**Azad ABDULLAYEV,**
**Ağdaş rayonu.**

-Əmək Məcəlləsinin 10-1.-ci maddəsinə əsasən, dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışmanın yaş həddi 65-dir.

Dövlət büdcəsindən maliyyələşən müəssisənin 65 yaşına çatmış işçisinin həmin müəssisədə çalışma müddəti müvafiq dövlət orqanının rəhbəri tərəfindən hər dəfə 1 ildən çox olmayaraq uzadıla bilər. Çalışma müddətinin 5 ildən çox uzadılmasına yol verilmir.

Elm, mədəniyyət, səhiyyə və təhsil sahələrinin inkişafında müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş xüsusi xidmətləri olmuş dövlət büdcəsindən maliyyələşən müəssisənin 65 yaşına çatmış işçisinin çalışma müddəti müvafiq dövlət orqanı tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş müddətdən artıq uzadıla bilər.

Müvafiq sahə üzrə dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışma müddəti uzadılmış işçilərin sayı həmin sahə üzrə dövlət büdcəsindən maliyyələşən müəssisələrin işçilərinin ümumi sayının 15 faizindən artıq ola bilməz.

Müvafiq sahə üzrə dövlət büdcəsindən maliyyələşən hər bir müəssisənin çalışma müddəti uzadılmış işçilərinin sayı həmin müəssisənin işçilərinin sayının 2 faizindən artıq ola bilməz. Müəssisənin işçilərinin sayı 100 nəfərdən az olduqda, çalışma müddəti uzadılmış işçilərin sayı iki ştat vahidinə qədər yuvarlaqlaşdırılır.

Dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışan işçilərin çalışma müddətinin uzadılmasına onların razılığı əsasında yol verilir.

Lakin məktubunuzdan məlum olur ki, işlədiyiniz müəssisənin səhmləri dövlətə məxsus olsa da, büdcədən maliyyələşmir. Odur ki, qeyd olunan maddənin müddəaları Sizə aid deyil.

Pensiya qanunvericiliyində də əmək pensiyası yaşına çatmaqla əlaqədar əmək müqaviləsinə xitam verilməsi qeyd edilməmişdir.

Əmək Məcəlləsinin 70-ci maddəsində işəgötürən tərəfindən əmək müqaviləsinin ləğv edilməsinin əsasları göstərilmişdir.

Maddənin "d" bəndinə əsasən, dövlət büdcəsindən maliyyələşən müəssisənin işçisi çalışmanın yaş həddinə çatdıqda onunla bağlanmış əmək müqaviləsi işəgötürən tərəfindən ləğv oluna bilər. Lakin bu bənd Sizə yox, yuxarıda qeyd etdiyimiz 10.1-ci maddədə göstərilən müəssisələrin işçilərinə aiddir.

Qanunvericiliyin tələblərinə görə, başqa əsas olmazsa, işəgötürən tərəfindhən pensiya yaşına çatmağınız səbəbindən Sizinlə bağlanmış əmək müqaviləsinə xitam verilə bilməz.

**Məcburi Arbitraj nədir və harada tətbiq edilir?**

**Bəsti QƏDİMOVA,**
**Qazax rayonu.**

- Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında "Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanına və Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 281-ci maddəsinə əsasən təsdiq edilmiş "Məcburi Arbitraj haqqında" Əsasnamənin 1-ci bəndinə görə, tətillərin qanunvericiliyə uyğun olaraq qadağan edildiyi sahələrdə (xəstəxana bölməsi, elektrik enerjisi təchizatı, su təchizatı, telefon rabitəsi, hava və dəmiryol nəqliyyatını idarəetmə xidməti, yanğından mühafizə xidməti) yaranmış kollektiv əmək mübahisəsini tərəflər barışdırıcı üsullarla həll edə bilmədikdə Məcburi Arbitraj tətbiq edilir.

Məcburi Arbitraj Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində yaradılır və "Məcburi Arbitraj haqqında" Əsasnaməyə uyğun olaraq fəaliyyət göstərir.

**Əmək müqaviləsi ləğv olunanda müəssisə rəhbəri tərəfindən bu barədə əmr hazırlanmalıdırmı?**

**Sənəm VEYSƏLOVA,**
**Gəncə şəhəri.**

- Bəli, istənilən səbəbdən əmək müqaviləsinin ləğv olunması işəgötürənin əsaslandırılmış əmri (sərəncamı, qərarı) ilə rəsmiləşdirilməlidir.

Əmək müqaviləsinə xitam verilməsi barədə işəgötürənin əmri (sərəncamı, qərarı) onun tərəfindən imzalanmalı və müəssisənin möhürü ilə təsdiqlənməlidir. Bu əmrin surəti, işçinin əmək kitabçası və işəgötürənin son haqq-hesabı (istifadə edilməmiş əmək məzuniyyətinə görə pul əvəzi, işçiyə ödənilməli əməkhaqqı və digər ödəmələr) ilə birlikdə sonuncu iş günü işçiyə verilməlidir.

**Yaşayış sahəsinin qeyri-yaşayış sahəsinə və qeyri-yaşayış sahəsinin yaşayış sahəsinə keçirilməsi hansı qaydada həyata keçirilir?**

**Səlim HƏSƏNOV,**
**Bakı şəhəri.**

- Yaşayış sahəsinin qeyri-yaşayış sahəsinə və qeyri-yaşayış sahəsinin yaşayış sahəsinə keçirilməsi müvafiq icra hakimiyyəti orqanının (bundan sonra - keçirilməni həyata keçirən orqan) qərarı əsasında həyata keçirilir.

Yaşayış sahəsinin qeyri-yaşayış sahəsinə və qeyri-yaşayış sahəsinin yaşayış sahəsinə keçirilməsi üçün müvafiq sahənin mülkiyyətçisi və ya onun tərəfindən səlahiyyət verilmiş şəxs (bundan sonra - ərizəçi) keçirilən sahənin yerləşdiyi ərazi üzrə keçirilməni həyata keçirən orqana aşağıdakı sənədləri təqdim edir:

1. sahənin keçirilməsi haqqında ərizə (ərizədə yaşayış sahəsinin qeyri-yaşayış sahəsinə keçirilməsinin məqsədləri göstərilməlidir);
2. keçirilən sahə üzərinə hüquqları müəyyənləşdirən sənədlər (əsli və ya notariat qaydasında təsdiqlənmiş surəti);
3. keçirilən sahənin texniki təsviri göstərilməklə planı (keçirilən sahə yaşayış sahəsi olduqda onun texniki pasportu);
4. keçirilən sahənin yerləşdiyi binanın mərtəbəli planı.

Sahənin keçirilməsini həyata keçirən orqan yuxarıda qeyd edilənlərdən başqa, digər sənədləri tələb edə bilməz. Sahənin keçirilməsini həyata keçirən orqan tərəfindən sənədlərin qəbul edilməsi barədə onların siyahısı, qəbul edilmə tarixi göstərilməklə qəbz verilir.

Məcəllənin tələblərinə uyğun olaraq təqdim edildiyi gündən otuz gündən gec olmayaraq ərizəyə baxılmalı və baxılmanın nəticəsindən asılı olaraq sahənin keçirilməsi və ya ondan imtina haqqında qərar qəbul edilməlidir.

Qəbul etdiyi gündən üç iş günündən gec olmayaraq göstərilən qərarlardan birinin qəbul edilməsini təsdiqləyən sənəd ərizəçiyə təqdim edilir və ya ərizədə göstərilən ünvana göndərir. Sahənin keçirilməsini həyata keçirən orqan ərizəçiyə həmin sənədi verməklə və ya göndərməklə yanaşı, qəbul edilmiş qərar barədə barəsində qərar qəbul edilən sahəyə bitişik olan sahələrin mülkiyyətçilərini məlumatlandırır.

Əgər keçirilən sahədə yenidənqurma və (və ya) yenidən planlaşdırma və digər işlərin görülməsi tələb edilmirsə, bu sənəd sahənin keçirilməsini təsdiq edir və həmin sahənin yaşayış və ya qeyri-yaşayış sahəsi kimi istifadə edilməsi üçün əsasdır.

Əgər sahənin yaşayış və ya qeyri-yaşayış sahəsi kimi istifadə edilməsi üçün yenidənqurma və (və ya) yenidən planlaşdırma və digər işlərin görülməsi tələb edilirsə, bu sənəd həmin sənəddə nəzərdə tutulmuş müvafiq yenidənqurma və (və ya) yenidən planlaşdırma və (və ya) siyahısı göstərilən digər işlərin ərizəçi tərəfindən görülməsi üçün əsasdır.

**Sorğuları şərh etdi: AHİK-in Hüquq şöbəsi**

# BƏT-in YENİ BAŞ DİREKTORU SEÇİLİB



**Beynəlxalq Əmək Təşkilatının (BƏT) yeni Baş direktoru Toqodan olan Gilbert Hounqbo olacaq.**

G.Hounqbo hazırda Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondunun (IFAD) prezidenti vəzifəsini tutur. O, hökumətlərin, işçilərin və işəgötürənlərin nümayəndələrinin daxil olduğu BƏT-in İdarəetmə Şurasının Cenevrədə keçirilən sessiyasında yeni vəzifəyə seçilib. G.Hounqbo BƏT-in 11-ci Baş direktoru və bu vəzifəni tutan ilk afrikalı olacaq.

"Mənim köklərim Afrikadan olsa da, düşüncələrim qlobal xarakter daşıyır. Təəssüflər olsun ki, biz təcridolunma, parçalanma dövrünü yaşayırıq. Lakin mənim birləşdirici rol oynayan baş direktor olmaq qətiyyətim dəyişməz qalır. Dünyanın bütün regionlarından olan hökumətləri, işəgötürənləri və işçiləri eyni dərəcədə əmin etmək istərdim ki, onları təmsil və müdafiə etmək qətiyyətimə arxalana bilərlər. BƏT-ə, bizə güvənənlərin maraqlarını təmsil etməyi öhdəmə götürürəm. Mənim fikirlərim dünyanın müxtəlif bölgələrində sosial müdafiədən məhrum olan dörd milyard insanla bağlıdır. Mənim düşüncələrim işsiz qalan 200 milyondan çox qadın və kişi, uşaq əməyi ilə məşğul olan 160 milyon uşaq, qeyri-formal iqtisadiyyatda işləyən 1,6 milyard insan ilə bağlıdır. Pandemiya, iqlim dəyişikliyi və silahlı münaqişələr də daxil olmaqla, böhranlar nəticəsində tədarük zəncirinin pozulması və ya bağlanması ilə üzləşən bizneslər, xüsusən də kiçik və orta sahibkarlıq müəssisələri haqqındadır. Düşüncələrim iş yerində və ondan kənarda ayrı-seçkiliyə, zorakılığa və təzyiqə məruz qalan qadınlar və kişilərdir. Bütün bunlar yolverilməz sosial ədalətsizliyin təzahürləridir. Və bunların aradan qaldırılması üçün mənəvi və ola bilsin ki, hüquqi məsuliyyət daşıyırıq", - deyə G.Hounqbo bildirib.

**Qeyd edək ki, Beynəlxalq Əmək Təşkilatının (BƏT) 11-ci Baş direktorunun seçkiləri 2022-ci il martın 25-də keçirilib. Bu vəzifəyə beş namizəd irəli sürülmüşdür: Toqodan Gilbert Hounqbo, Koreya Respublikasından Kanq Kyunqva, Cənubi Afrika Respublikasından Mtunzi Mdvaba, Fransadan Muriel Penicaud və Avstraliyadan Qreq Vayns.**

Yeni Baş direktor beşillik müddətə seçilib və 2022-ci il oktyabrın 1-də vəzifəsinin icrasına başlayacaq. Hazırkı Baş direktor Qay Rayder 2012-ci ildən vəzifədədir.

**BƏT-in İdarə Heyəti 56 həqiqi üzvdən (28 nəfər hökumət nümayəndəsi, 14 nəfər işəgötürən nümayəndəsi və 14 nəfər işçilərin nümayəndəsi) və 66 əvəzedici üzvdən ( hökumət (28), işəgötürən (19) və işçilər (19)) ibarətdir. İşəgötürənləri və işçiləri təmsil edən üzvlər şəxsi səlahiyyətləri daxilində seçilirlər. BƏT BMT sisteminin ən qədim ixtisaslaşmış qurumudur. O, 1919-cu ildə hamı üçün layiqli işi təmin etmək mandatı ilə yaradılmışdır. Təşkilatın tərkibinə 187 üzv dövlət daxildir.**

Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının (BHİK) Baş katibi Şaran Barrou deyib: "Gilbert Hounqbonun namizədliyi BHİK tərəfindən də dəstəklənib. O, BƏT-in üçtərəfli mandatı və strukturu ilə bağlı öhdəliyini və əmək sahəsində standartların müəyyənləşdirilməsində və hamı üçün layiqli işin təbliğində onun həyati rolunu aydın şəkildə nümayiş etdirdi. Uzun müddət yuxarı vəzifələrdə -Toqonun baş naziri və Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondunun prezidenti, BƏT-də isə Baş direktorun müavini kimi ən yüksək postlarda çalışıb.

**BƏT-in tarixində ilk dəfə olaraq bu quruma bir afrikalının rəhbərlik edəcəyini bilmək də yaxşıdır. Biz onunla işləməyi səbirsizliklə gözləyirik, çünki sülh, yaxşı iş yerləri, sıfır karbon iqtisadiyyatına keçid və hamının rifahı üçün texnologiyanın əsas olduğu bir vaxtda BƏT beynəlxalq sistemdə mərkəzi rol oynayır.**




# Enerji böhranı milyonlarla insanı yoxsulluğa sürükləyəcək

**Avropa Həmkarlar İttifaqları Konfederasiyasının Baş katibi Luka Visentini Avropa Şurası Sammitinin yekununu şərh edərkən deyib: "Təxminən 9,5 milyon işçi öz hesablarının ödənilməsi ilə bağlı problemlərə malik idi. Ukraynada gedən müharibə ilə daha da şiddətlənən enerji böhranı, çox güman ki, milyonlarla insanı yanacaq yoxsulluğuna sürükləyəcək. Bu arada isə enerji şirkətləri rekord gəlir əldə etməkdədirlər. Avropa Rusiya yanacağına alternativ axtarana qədər enerji qiymətlərinə məhdudiyyətin qoyulmasına ehtiyacımız daha aydın şəkildə ola bilməz. İnsanlar ləyaqətlə yaşamalıdırlar.**

Avropa İttifaqı (Aİ) liderləri orta və uzunmüddətli enerji təhlükəsizliyi həllərində əhəmiyyətli irəliləyişlər əldə edirlər, lakin onlar bu müharibənin dərhal nəticələrini aradan qaldırmaq üçün birlikdə çalışmalıdırlar. Enerji qiymətlərini məhdudlaşdırmaqla yanaşı, Aİ pandemiya zamanı olduğu kimi, "SURE" sxemini yenidən diqqət mərkəzində saxlamaqla və maliyyələşdirməklə iş yerlərini və müəssisələri qorumaq üçün də hərəkət etməlidir.

Bu, dəhşətli, qeyri-qanuni müharibəyə son qoymaq üçün çox vacib olan beşinci raund sanksiyaları ilə irəliləməyi asanlaşdıracaq. Aİ həmçinin Ukrayna prezidenti V.Zelenskinin Şuraya fövqəladə müraciətindən sonra üzvlük prosesi ilə bağlı dialoq açmaqla Ukraynaya dəstəyini göstərmək üçün daha çox iş görməlidir. Ukrayna tərəfi də daxil olmaqla, heç bir gözləntimiz yoxdur ki, bu, tez və ya asan olacaq.

**Lakin bu prosesin başlanması Rusiyaya güclü siqnal verərdi ki, Ukrayna təklikdən uzaqdır, o, Avropa Birliyinin mərkəzi hissəsidir. Eyni dialoq regionda sabitliyə və bərabər münasibətə zəmanət vermək üçün Aİ ilə əlaqəli olan Gürcüstan və Moldova kimi digər ölkələrlə də açılmalıdır".**

# Sosial xidmət sahəsində olan problemlər müzakirə olunub



**Bu həftə Avropa Sosial İşəgötürənlər Federasiyasının və Avropa İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqları Birliyinin (EPSU) nümayəndələri Avropanın Məşğulluq və sosial hüquqlar üzrə komissarı Nikolas Şmit ilə görüşüblər. Görüşdə bir sıra aktual məsələlər, o cümlədən sosial xidmətlərdə cari kadr problemləri, qarşıdan gələn Avropa Qayğı Strategiyası və ən əsası, Avropa İttifaqı (Aİ) Sosial Dialoq Sahə Komitəsinə birgə müraciətlə bağlı növbəti addımlar müzakirə olunub.**

N.Şmit qarşıda duran sosial məsələlərin ən yaxşı şəkildə həllinə nail olmaq və keyfiyyətli sosial yardım göstərmək üçün sosial xidmətlər üzrə sosial dialoq sahə komitəsinin yaradılmasını tamamilə dəstəkləyir.

Birgə ərizəyə dair qərarın Aİ-nin sektoral sosial dialoqunun nəzərdən keçirilməsindən sonra 2022-ci ilin sentyabrında qəbul ediləcəyi gözlənilir.

**Görüşdən sonra martın 23-də Sosial İşəgötürənlərin və EPSU-nun sosial xidmət sahəsində sosial dialoq üzrə birgə pilot iclası keçirilib.**

İclasda hər iki təşkilat Avropa Qayğı Strategiyası ilə bağlı birgə mövqelərini təqdim edib. Qayğı strategiyasının həyata keçirilməsinə yardım sosial xidmət üzrə Aİ-nin sosial dialoq sahə komitəsi çərçivəsində birgə iş Sosial İşəgötürənlər və EPSU-nun ümumi məqsədlərindən biridir.

Sosial tərəfdaşlar həmçinin gələcək sosial dialoq komitəsinin prioritetlərini müzakirə ediblər: əsas prioritetlər kadrların işə qəbulu və saxlanılması, iş şəraiti, dövlət satınalmaları və potensialın gücləndirilməsidir.

İclas sosial tərəfdaşların birgə bəyannaməsinin qəbulu ilə başa çatıb.

**Birgə Bəyannamədə Aİ-nin qayğı strategiyasının uğurla həyata keçirilməsi üçün sosial xidmətlər sahəsində fəal sosial dialoqun vacibliyi vurğulanır. Sosial işəgötürənlər və EPSU-nun sosial xidmətlər üçün sosial dialoq üzrə sahə komitəsi çərçivəsində daha da irəliləməyə hazır olduğunu və öhdəliyini təsdiqləyir.**

Avropa Sosial İşəgötürənlər Federasiyası Avropa səviyyəsində sosial xidmətlər sektorunda işəgötürənləri təmsil edir və Eurofound-un məlumatına görə, özəl sektorun sosial xidmətlər sektorunda işəgötürənlərin ən yüksək təmsilçiliyinə malikdir. Federasiyanın məqsədi Avropa və milli səviyyələrdə sosial xidmətlər sahəsində işəgötürənlərin mövqeyini gücləndirmək, üzvlər arasında ümumi mövqelər yaratmaq və sosial xidmət işçilərini təmsil edən Avropa həmkarlar ittifaqı ilə danışıqlar aparmaqdır.

**Avropa İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqları Birliyinin (EPSU) bütün Avropanın həmkarlar ittifaqlarını bir araya gətirir və 8 milyondan çox dövlət qulluğu işçisini təmsil edir. O, sosial xidmət sektorunda ən çox təmsil olunan həmkarlar ittifaqı təşkilatıdır. EPSU əmək şəraitinin, əməyin mühafizəsi və təhlükəsizlik texnikasının yaxşılaşdırılması, eləcə də üzvlərinin hüquqlarının genişləndirilməsi üçün səy göstərir. Avropa səviyyəsində işəgötürənlərlə görüşərək ictimai xidmət işçilərinin iş həyatını yaxşılaşdıran və vətəndaşlara keyfiyyətli xidmət göstərən ən yaxşı təcrübə müqavilələri bağlayır.**

# Ədalətli keçid konsepsiyası



**İctimai xidmət işçilərini təmsil edən qlobal alyans olan İctimai Xidmət İnternasionalı (PSİ) iqlim dəyişikliyi ilə mübarizə və qayğıkeş cəmiyyətlər qurmaq üçün beynəlxalq ictimaiyyəti və bütün səviyyələrdə hökumətləri transformasiya, feminist, ədalətli və bərabərhüquqlu keçidi dəstəkləməyə çağırır.**

PSİ-nin Baş katibi Roza Pavanelli bildirib ki, iqlim böhranı gender xarakteri daşıyır. Qadınlar iqlim fəlakətlərinin nəticələrinin qeyri-mütənasib ağırlığını daşıyır, əhalinin yerdəyişməsini və miqrasiyanı, enerji yoxsulluğunu, qayğı yükü və iqlim ilə bağlı itkiləri və ziyanları hiss edirlər.

**Neoliberalizmin "daha ekoloji" versiyası iqlim dəyişikliyinin və ya gender bərabərsizliyinin struktur səbəblərini aradan qaldırmayacaq.**

Ədalətli keçid konsepsiyasının gender əmək bölgüsünün dəyişdirilməsi, qadınların işinin, tibb bacısı və səhiyyə kimi qadınlaşdırılmış sektorların yenidən qiymətləndirilməsi daxil olmaqla, daha geniş tətbiqlərə malik olması lazımdır.

**Keçid dövrünü formalaşdırmalıyıq:**

-Bu, pandemiyanın üst-üstə düşən böhranlarına, iqlimə və artan bərabərsizliyə aiddir.

-Bu, mövcud gender əmək bölgüsünü dəyişdirmək, layiqli əməyi, o cümlədən həmkarlar ittifaqı hüquqlarını təşviq etmək və bütün dünyada qadınlar üçün qeyri-rəsmi iş yerlərini sadələşdirmək və gender-transformativ ictimai xidmətləri təkmilləşdirmək üçün imkan yaradır.

-Bu, enerji demokratiyası prinsiplərinə əsaslanan enerjinin istehsalı, ötürülməsi, bölüşdürülməsi və nəzarəti üzərində ictimai mülkiyyətə gətirib çıxarır ki, burada qadınlar tam siyasi potensiala və qərarların qəbulu üçün təmsil olunurlar.

-Bu, dövlət idarəçiliyinin bütün səviyyələrinin, beynəlxalq və milli vergi qanunvericiliyinin islahatları və suveren borc böhranının davamlı həlli hesabına maliyyələşdirilən insanların və planetin tələbatını ödəmək üçün gender amillərini nəzərə almaqla, adekvat və proqnozlaşdırıla bilən maliyyələşməyə malik olacağına zəmanət verir.

**İnsan hüquqlarına əsaslanan yanaşma iqlim dəyişikliyinin nəticələri ilə dövlətlərin üzərinə məsuliyyət qoyaraq lazımi cavab tədbirləri arasında uyğunluğu təmin edəcəkdir.**

# Həmkarlar ittifaqları regionda minimum əməkhaqqının artırılmasını tələb edir




**Martın 15-də onlayn keçirilən Avropa İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqları Birliyinin (EPSU) Cənub-Şərqi Avropa ölkələri üzrə iclasında iki mövzu üstünlük təşkil edirdi: Ukraynadakı müharibə və enerjidaşıyıcılarının və digər malların qiymətlərinin artması. Həmkarlar ittifaqı təşkilatları Rusiya ordusunun fevralın 24-də Ukraynaya hücumunu kəskin şəkildə pisləyib. Bu, ölkənin ərazi bütövlüyünün pozulmasına və kütləvi qaçqın dalğasının yaranmasına səbəb oldu. 4 milyona yaxın insan ölkəni tərk edib və Moldova, Rumıniya kimi qonşu ölkələrdə sığınacaq alıb. Həmçinin həmkarlar ittifaqı təşkilatları və üzvləri tərəfindən qaçqınlara, əsasən də qadınlara və uşaqlara yardım göstərilməsi barədə məlumat verilib. Türkiyə həmkarlar ittifaqlarının nümayəndələri 2015-ci ildə müharibədən sonra milyonlarla suriyalı qaçqını qəbuletmə təcrübəsindən danışıblar.**

**Həmçinin diqqətə çatdırılıb ki, Ukraynada müharibə enerji sahəsində vəziyyəti gərginləşdirib. Enerjidaşıyıcılarının qiyməti onsuz da yüksək idi və artmaqda davam edir, bu da bir çox işçiləri və onların ailələrini yoxsulluğa sürükləyir. Türkiyə həmkarlar ittifaqlarının inflyasiyanı və onun ərzaq səbətinə necə təsir göstərdiyini izləyən layihələri var. Həmkarlar ittifaqları regionda minimum əməkhaqqının artırılmasını və müntəzəm əməkhaqqının ödənilməsini tələb edir. Albaniya Həmkarlar İttifaqları hökumətin qiymətləri aşağı salmaqdan imtina etdiyi üçün bütün ölkədə keçirilən davamlı etirazlar barədə məlumat verib.**

Sonra EPSU-nun Baş katibi 2022-ci il üçün gündəliyi təqdim edib və gələcək prioritetləri açıqlayıb.

Daha sonra EPSU Qadın Məsələləri və Gender Bərabərliyi Komitəsinin işi müzakirə olunub. Gənclər Şəbəkəsi və Tiranada planlaşdırılan görüş haqqında məlumat verilib. Maliyyə İşçi Qrupu üzrə dairə nümayəndəsi 2023 və 2024-cü illər üçün üzvlük haqları ilə bağlı təklifi ətraflı şərh edib.

**İclasda Albaniya, Azərbaycan, Bolqarıstan, Moldova, Rumıniya, Türkiyə və digər ölkələrin həmkarlar ittifaqlarının nümayəndələri iştirak ediblər.**

**Səhifəni hazırladı:
Azər MUSTAFAYEV**

ülfət
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ
Son səhifə
CÜMƏ AXŞAMI, 31 MART 2022-Cİ İL / № 11 (1278)


## TƏBRİK



**Bu günlərdə "Neftqaztikinti" Trestinin Həmkarlar İttifaqı Komitəsinin sədr müavini Yaşar Tağıyevin 65 yaşı tamam olub.**

O, 1957-ci il martın 29-da Füzuli rayonunda anadan olub. 1999-cu ildə keçmiş "Xəzərdənizneftqaztikinti" Trestində ( indiki "Neftqaztikinti" Tresti) Həmkarlar İttifaqı Komitəsində (HİK) təlimatçı vəzifəsinə qəbul olunub.

Bu vəzifədə fəaliyyətə başladığı ilk günlərdən həmkarlar işini mükəmməl öyrənməyi qarşısına məqsəd qoyub.

Həmkarlar ittifaqı sıralarında uzun müddət çalışmış əməkdaşların təcrübəsindən bəhrələnib. İttifaq üzvləri ilə sıx əlaqə saxlayıb. Trestin hər bir işçisinin yaxın, doğma adamına çevrilməyi bacarıb. İş yoldaşlarının dediyinə görə onun xarakterindəki mehribançılıq, humanizm həmkarlar ittifaqı sıralarında uğur qazanmasının başlıca şərtidir. Uğurları isə kifayət qədərdir. Hər seçkidə həmkarlar ittifaqı komitəsinin üzvü seçilir. 2006-cı ildə ittifaq üzvləri ona daha böyük etimad göstərdilər. Komitə sədrinin müavini vəzifəsinə namizədliyini irəli sürüb dəstəklədilər. Yaşar müəllim bu vəzifədə də etimadı doğrultdu. Təşkilatçılıq qabiliyyətini bütün genişliyi ilə nümayiş etdirdi.

Həmkarlar ittifaqı tərəfindən həyata keçirilən sosial layihələrin aktiv iştirakçısıdır. İşçilərin əmək şəraitinin yaxşılaşdırılması, sağlamlıqlarının və təhlükəsizliklərinin qorunması, istirahətlərinin təşkili istiqamətində böyük səy göstərir.

**Yaşar müəllimi yubiley yaşı münasibətilə təbrik edir, ona cansağlığı və gələcək fəaliyyətində uğurlar arzulayırıq.**

**Neft və Qaz Sənayesi İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi**

# Şəhid ailəsinin qayğısına qalmağı özünün vətəndaşlıq borcu bilir

**Kənd Təsərrüfatı və Qida Sənayesi İşçiləri Həmkarlar İttifaqı Federasiyası Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda Qarabağda 44 gün davam edən Vətən müharibəsi dövründə Ordumuzu dəstəkləmiş, əsgər ailələrinin yanında olmuşdur. Müharibədən sonra da bu dəstək davam etməkdədir. Federasiya, üzv təşkilatları qazilərimizə, şəhid ailələrinə mənəvi və maddi köməyini əsirgəmir. Himayəyə götürdüyü iki şəhid ailəsinin qayğısına qalmağı özünün vətəndaşlıq borcu bilir.**



Bayramlarda və əlamətdar günlərdə onlar ziyarət olunur, sovqatlar verilir və yardımlar göstərilir. Novruz bayramı münasibətilə Federasiyanın Aparat rəhbəri Rüfət Bürcəliyev və "Az-Granata" MMC-nin Həmkarlar İttifaqı Komitəsinin sədri Cabbar Məmmədov Ağsu rayonuna və Mingəçevir şəhərinə səfər etmiş, şəhid ailələrinin qonağı olmuşlar. Şəhidlərin ailə üzvləri ilə söhbətləşən qonaqlar onların qayğıları ilə maraqlanıb, problemlərini dinləyiblər.

## İdman



# Velosiped idman növü üzrə rayon birinciliyi

**Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyasının Culfa rayon bölməsinin, rayon gənclər və idman idarəsinin və təhsil şöbəsinin, Culfa Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı ilə velosiped idman növü üzrə rayon birinciliyi keçirilmişdir.**

Birincilik 32 idmançının iştirakı ilə Bayraq Meydanından Gülüstan Türbəsinədək məsafədə təşkil edilmişdir. Yekunda qaliblərə fəxri fərmanlar və qiymətli hədiyyələr təqdim olunub.

# "BEYNƏLXALQ TƏŞKİLATLARIN TARİXİ" mövzusunda təlim

**Bakı Dövlət Universitetinin (BDU) Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) və Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin birgə təşkilatçılığı ilə "Beynəlxalq təşkilatların tarixi" mövzusunda təlim keçirilib.**




Tədbirdə çıxış edən Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi üzrə THİK sədri İbrahim Özsoy xarici siyasətdə beynəlxalq təşkilatlarla münasibətlərin yüksək səviyyədə qurulmasının xüsusi əhəmiyyət daşıdığını qeyd edib.

**BDU-nun THİK sədri Hacıbaba Mustafayev beynəlxalq təşkilatların tarixi haqqında ümumi məlumat verib, onların müasir beynəlxalq münasibətlər sistemində yeri və rolunu diqqətə çatdırıb.**

Tədbirdə eyni zamanda Azərbaycanın son illərdə beynəlxalq müstəvidə artan nüfuzu, müxtəlif beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlığı ilə bağlı məlumat verilib.

**Qeyd olunub ki, əsasında milli maraqların qorunması dayanan xarici siyasət kursunun formalaşması və həyata keçirilməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin siyasi kursu Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısının həyata keçirdiyi dinamik, intensiv və çevik xarici siyasət sayəsində milli maraqlarımız hər zaman təmin olunur.**



**Sabirabad Rayon Mədəniyyət Mərkəzində Novruz bayramı münasibətilə "Xonça" festivalı təşkil olunub. Festival rayon icra hakimiyyətinin təşəbbüsü, Regional Mədəniyyət İdarəsi və Gənclər və İdman idarəsinin birgə təşkilatçılığı ilə keçirilib.**

# Festival iştirakçılarına sertifikatlar verilib

Tədbirdə rayon icra hakimiyyətinin, dövlət qurumlarının rəhbər işçiləri və əməkdaşları, Vətən müharibəsi şəhidlərinin ailə üzvləri və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Əvvəlcə "Xonça" festivalı haqqında məlumat verilib. Sonra Sabirabad Dövlət Sosial-İqtisad Kollecinin, rayon peşə liseyinin, həmçinin orta ümumtəhsil məktəblərinin şagird və tələbələri tərəfindən hazırlanan bayram xonçaları nümayiş olunub.

**Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov çıxış edərək, başda şəhid ailələri olmaqla, rayon ictimaiyyətini Novruz bayramı münasibətilə təbrik edib.**

Tədbir konsert proqramı ilə davam edib.

Daha sonra Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Sabirabad Rayon Komitəsi tərəfindən hazırlanan hədiyyələr şəhid övladlarına təqdim olunub.

**Sonda "Xonça" festivalının iştirakçılarına Sabirabad Regional Mədəniyyət İdarəsi və Sabirabad Rayon Gənclər və İdman İdarəsi tərəfindən sertifikatlar verilib.**




# "Zenit" İC-nin yetirməsi Avropa çempionatında gümüş medal qazanıb

**"Zenit" İdman Cəmiyyətinin yetirməsi Əliabbas Rzazadə Macarıstanın paytaxtı Budapeştdə keçirilən güləş üzrə Avropa çempionatında gümüş medal qazanıb.**

57 kq. çəki dərəcəsində yarışa başlayan sərbəst güləşçimiz ilk görüşündə İspaniya təmsilçisi Levan Metreveliylə 7:0 hesabı ilə qalib gəlib. Daha sonra bolqarıstanlı Mikyay Salim Naimdən üstün olub. Ə.Rzazadə yarımfinalda gürcüstanlı Beka Bujiaşviliylə qarşılaşıb. İlk hissədə tam üstünlüklə qələbə qazanaraq Avropa çempionatının finalına yüksəlib. Təmsilçimiz həlledici görüşdə Vladimir Yeqorovla (Şimali Makedoniya) qarşılaşıb. Rəqibə 8:6 hesabı ilə məğlub olan Ə.Rzazadə ikinci yeri tutub.

**Qeyd edək ki, bu məşqçi-müəllim Aslan Ağayevin yetirməsinin yüksək titullu yarışlarda növbəti uğurudur.**

# "N" saylı hərbi hissədə Novruz şənliyi



**"N" saylı hərbi hissədə Novruz bayramı qeyd olundu. Tədbirin əvvəlində Vətən uğrunda şəhidlik zirvəsinə yüksəlmiş igidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Sonra hərbi hissəyə bayram şənliyinə toplaşmış Sabirabad rayon ictimaiyyətinin nümayəndələri çıxış edərək şəxsi heyəti təbrik edib, onlara çətin və şərəfli xidmətlərində uğurlar arzulayıblar. Bildiriblər ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu öz üzərinə düşən missiyanı layiqincə yerinə yetirərək 44 günlük Vətən müharibəsində Zəfər qazanıb. Əsgərlər və zabitlər şərəfli peşə sahibi olduqlarını bir daha sübut ediblər. Diqqətə çatdırılıb ki, torpaqlarımız şəhidlərin qanı bahasına azadlığa qovuşub. Bu gün Vətən keşiyində dayanan əsgərlər və zabitlər onlara əmanət olan torpaqları göz bəbəyi kimi qoruyurlar.

Daha sonra hərbçilərə bayram sovqatları təqdim olunub.

**Tədbir Sabirabad Rayon Mədəniyyət Mərkəzinin təşkil etdiyi rəngarəng konsert proqramı ilə davam edib.**



# "Aqrobiznes" komandası qalib oldu

**Novruz bayramı münasibətilə Azərbaycan Dövlət Aqrar Universitetinin Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı və maddi dəstəyi ilə fakültələrarası voleybol yarışı keçirildi. Olimpiya sistemi ilə keçirilən yarışlara 8 fakültə və İnzibati binanın əməkdaşları qatılmışdılar. Birinci yerin taleyi "Aqrobiznes" və "Aqrar İqtisadiyyat" fakültələrinin komandalarının qarşılaşmasından sonra həll olundu. Aqrobiznesçilər daha yaxşı nəticə göstərərək qalib adını qazandılar. "Aqrar iqtisadiyyat" fakültəsinin voleybolçuları ikinci yerlə kifayətləndilər. Üçüncü yerə isə İnzibati binanın komandası çıxdı.**

Qaliblər Universitetdə təşkil olunmuş Novruz bayramı şənliyində kubok, Fəxri Fərman və xüsusi hədiyyələrlə mükafatlandırıldılar.

## ALLAH RƏHMƏT ELƏSİN!

AHİTA-nın sədri Nadir Əliyev, idman təşkilatlarının sədrləri və kollektivinin bütün üzvləri həmkarlar ittifaqlarının «Alpinist-Turist» İdman Klubunun sədri Saridan Mupsaqulova qardaşı
**RİZVAN MURSAQULOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mədəniyyət İşçiləri Hİ Ağstafa Rayon Komitəsinin sədri Zahid Sultanov Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Tovuz Rayon Komitəsinin sədri Asif Qasımov Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Qazax Rayon Komitəsinin sədri İsgəndər Qurbanov Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mədəniyyət İşçiləri Hİ Tərtər Rayon Komitəsinin sədri Sadiq Quliyev Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı
**RUHULLA müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Baş redaktor:**
AQİL DADAŞOV
**Təsisçi:**
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Qeydiyyat № 147
Tiraj: 7505
Sifariş: 870
Redaksiyanın ünvanı:
Bakı - 1005,
Gənclər meydanı 3
Telefonlar: 492-75-55; 492-42-47

"Azərtürk Bank"
Hesab nömrəsi:
AZ08AZRT3809001944
0000132001
Kod: 5:0:7:6:9:9
VÖEN: 1700349431
İndeks: 0271

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
e-mail: ulfet-az@mail.ru
**Sərbəst qiymət**